RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 284 (8877) ÇƏRŞƏNBƏ, 29 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın Sankt-Peterburq şəhərinə səfəri

## "Pulkovo-2" Hava Limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 28-də Sankt-Peterburq şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, Sankt-Peterburq şəhərinin "Pulkovo-2" Hava Limanında dövlətimizin başçısını Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko və digər rəsmi şəxslər qarşıladılar.

## MDB dövlət başçılarının qeyri-rəsmi naharı olub

Dekabrın 28-də Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi naharı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

## Səfər başa çatdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfəri dekabrın 28-də başa çatıb.

## Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib







Dekabrın 28-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

MDB dövlət başçıları birgə foto çəkdiriblər.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

Sonra koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## İnkişaf və zəfər yolu

### İlham Əliyevin rəhbərliyi ilə gedilən bu yol xalqımıza möhtəşəm uğurlar və qələbələr bəxş edir

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ömrünün 60-cı ilini Qarabağda qarşıladı. Həmin gün Xocavənd rayonunun Hadrut qəsəbəsində hərbi hissənin açılışında iştirak edən Prezident daha sonra ailə üzvləri ilə birlikdə Şuşaya səfər etdi. Bu, İlham Əliyevin 2021-ci il ərzində Şuşaya etdiyi sayca yeddinci səfər kimi tarixə düşdü.

### Qətiyyətlə yerinə yetirilən tarixi missiya

İndi Şuşa da azaddır, Hadrut da. 30 ilə yaxın işğal dövründə Azərbaycan xalqı bir gün belə torpaqlarımızın azadlığa qovuşacağına olan ümidini itirmədi. Bu ümidi yaşadan Heydər Əliyevin başlatdığı və İlham Əliyevin qətiyyətlə davam etdirdiyi məqsədyönlü siyasət oldu. Bu siyasət yalnız ordu quruculuğu ilə yekunlaşmadı.

Ardı 5-ci səh.

## 29 Dekabr "ASAN xidmət" İşçilərinin Peşə Bayramı Günüdür!

"ASAN xidmət"in yaradılması Azərbaycanda aparılan ciddi islahatların təzahürüdür. Bu, yeni sistemdir. Bu, Azərbaycan brendidir".

9 il öncə - 2012-ci ildə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılmasını və gələcək fəaliyyətini dəyərləndirərkən Prezident İlham Əliyevin söylədiyi bu fikirlər bu gün bir daha öz təsdiqini tapır.

Siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 18 ildə xalqın rahatlığı naminə həyata keçirdiyi islahatlar bu gün öz mükəmməl nəticəsini verməkdədir.

Ardı 6-cı səh.




### İlham Əliyevin yaratdığı "ASAN" brendi ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər edib

## Mükəmməl nümunə

## Müzəffər Komandan, modern ordu, peşəkar savaşçı

### İlham Əliyevin ordu quruculuğu prosesi yeni mərhələyə qədəm qoyub

Böyük Zəfərlə bitən İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanda Ordu quruculuğu prosesi daha da modernləşməyə başlayıb.

Bu gün Azərbaycan Silahlı Qüvvələri dövlətin qüdrətinin nümunəsi, xalqın iftixar yeridir. Çünki Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində çox mühüm işlər görülür. İşğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, müasir hərbi texnika və silah-sursatla təchizat bunun əyani təsdiqidir. Yeni yaradılan Komando briqadaları isə müasir yeniliklərdən biridir və Azərbaycanda ilkdir.

Ardı 5-ci səh.



## Pandemiya dünyada Yeni il şənliklərini təxirə salır

### Bir çox ölkə "Omikron"a yoluxma hallarının artacağından narahatdır

COVID-in yeni mutasiyası olan "Omikron"un daha sürətlə yayıldığını nəzərə alan Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) vətəndaşlarının sağlamlıqlarını qoruya bilməsi üçün bütün ölkələri Yeni illə bağlı səyahət planlarını ləğv etməyə çağırıb.

ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus ləğv edilən bir səyahət planının insan həyatından daha önəmli olmadığını vurğulayaraq, hər kəsi bu günlərdə məsuliyyəti unutmamağa çağırıb.

Ardı 7-ci səh.

## Ermənistanın yarısı yoxsulluq içərisində yaşayır

### Ölkəni son 30 ildə 2 milyondan çox insan tərk edib

Ermənistanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Bu vəziyyətdə sadə vətəndaşların rifah halı daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın artmasına rəvac verir.

İndi bu ölkədə insanlar gələcəklərinə nikbin yanaşmır və əvvəlki kimi Ermənistanı tərk etməyə çalışırlar. Yerdə qalan sakinlərin durumu isə olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa belə pul tapmaqda çətinlik çəkirlər. Məhz bunun nəticəsidir ki, Ermənistanda əhalinin böyük əksəriyyəti banklara borcludur. Bank faizləri isə kifayət qədər yüksəkdir.

Ardı 9-cu səh.

## Dünya gündəmi

## 2022-ci ildə dünya iqtisadiyyatına təhdidlər davam edəcək

### Avrozonada inflyasiya göstəriciləri çoxillik rekordları yeniləyib

Ekspertlər hesab edirlər ki, koronavirusun yeni variantları, enerji daşıyıcılarının qiymətinin artması və ABŞ-la Rusiya arasındakı gərginlik 2022-ci ildə investorlara əlavə narahatlıq yaradacaq.

2021-ci ildə dünya iqtisadiyyatı pandemiyanın yaratdığı tənəzzüldən bərpa olunsa da, ikinci yarımillikdə onun artımı koronavirusun yeni epidemiyaları üzündən zəifləyib. Qlobal təchizat zəncirinin pozulması, işçi qüvvəsinin çatışmazlığı və xüsusilə inkişaf etməkdə olan ölkələrdə koronavirusa qarşı vaksinasiyanın ləng templəri də öz rolunu oynamışdır.

Ardı 9-cu səh.



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Əlamətdar yubileyiniz - doğum gününüzün 60 illiyi münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik və ailə səadəti, Azərbaycanın və dəyərli Azərbaycan xalqının firavanlığı naminə ali dövləti vəzifənizin icrasında yeni uğurlar arzulayıram.

Fürsətdən istifadə edərək dost ölkələrimiz və xalqlarımız arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulması və dərinləşdirilməsinə şəxsi töhfələrinizi vurğulayır, qarşılıqlı maraqlarımız əsasında münasibətlərimizin birgə inkişafına və genişləndirilməsinə həmişə hazır olduğumu bildirirəm.

Həmçinin Azərbaycanın təkcə yerləşdiyi regionda deyil, Qərbi Balkanlarda, Avropada və beynəlxalq aləmdə də layiqli yerini tutmasında Sizin şəxsi xidmətlərinizi xüsusilə vurğulamaq istəyirəm.

Sizinlə ən yaxın zamanda görüşmək ümidi ilə yüksək ehtiramımı və dost salamlarımı çatdırıram.

*Hörmətlə,*

***Milo CUKANOVİÇ,***
***Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*

***Emil KONSTANTİNESKU,***
***Rumıniyanın sabiq Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü, Buxarestdə fəaliyyət göstərən Levant Mədəniyyəti və Sivilizasiyasının Tədqiqi üzrə Təkmilləşdirmə İnstitutunun (ISACCL) rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Çin İctimai Diplomatiya Assosiasiyası adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizin şəxsi dəstəyi və səyləri sayəsində Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri son illərdə daim inkişaf edərək ən yüksək səviyyəyə çatıb. Ötən il Heydər Əliyev Fondunun dəstəyi ilə Çinin Yunnan vilayətinin Malipo qəsəbəsindəki 2 nömrəli ibtidai məktəbin idman meydançası yenidən qurulub. Bu təşəbbüs yerli tələbələr və müəllimlər tərəfindən yüksək qiymətləndirildi və Sizin Çində kənd yerlərinin dirçəldilməsi işinə verdiyiniz əhəmiyyəti nümayiş etdirdi.

Mən məmnuniyyətlə ali diqqətinizə çatdırmaq istərdim ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Çin İctimai Diplomatiya Assosiasiyası ilə sıx əməkdaşlıq əlaqələri saxlayır. Ötən il Mərkəzin və Assosiasiyanın birgə təşkilatçılığı ilə “COVID-19-dan sonrakı dövrdə beynəlxalq düzən və qlobal idarəetmə” mövzusunda forum keçirilib. Həmin forumda multilateralizmin qorunması və yeni növ beynəlxalq münasibətlərin qurulması ilə bağlı səmərəli müzakirələr aparılıb. İnanıram ki, xalqlarımızın mədəni əlaqələrinin inkişaf etdirilməsi ölkələrimiz arasında qarşılıqlı anlaşma və etimadı daha da möhkəmləndirəcək və bu, ikitərəfli əməkdaşlığın inkişafına çox güclü təkan verəcək.

Mən Çin İctimai Diplomatiya Assosiasiyasının prezidenti kimi xalqlarımız arasında dostluğun təşviqi və ikitərəfli əlaqələrin inkişafı istiqamətində səylərimi əsirgəməyəcəyəm.

Azərbaycan xalqının Sizin rəhbərliyinizlə daha xoşbəxt və firavan yaşamasını səmimi-qəlbdən arzulayır, Çin-Azərbaycan dostluğunun əbədi olmasını diləyirəm.

*Hörmətlə,*

***Vu HAYLONQ,***
***Çin İctimai Diplomatiya Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Mən elm adamıyam, 30 ilə yaxındır ki, Azərbaycandan uzaqda yaşayıram. Bu illər ərzində bir elm adamı kimi bir çox məqsədlərimə çatmışam. Bu 30 ildə bütün azərbaycanlılar kimi, Vətənimizin uğurlarına sevinmişəm, itkilərinə məyus olmuşam. Vətəndən kənarda bu hisslər daha güclü olur.

Ötən il Siz bizə elə bir sevinc bəxş etdiniz ki, bunu heç nə ilə müqayisə etmək olmaz. Bu, Vətən müharibəsində qazanılan Qələbənin sevincidir. Bu, Azərbaycanın müasir dövlətçilik tarixində ən böyük qələbəsidir.

Cənab Ali Baş Komandan, Siz döyüş meydanında Zəfər çaldınız. Amma XXI əsrin savaşı həm də intellekt savaşıdır. Bu intellekt savaşını Siz təkbaşına qazandınız. Mənim fikrimcə, Sizin qələbəniz müasir dövrdəki analoji münaqişələrin həlli üçün bir beynəlxalq nümunədir. Mən bir azərbaycanlı kimi fəxr edirəm ki, belə bir beynəlxalq nümunə məhz Sizin adınızla bağlıdır.

Möhtərəm Prezident, mən də Sizə ünvanlanan çoxsaylı təbriklərə qoşularaq zati-alinizə uzun ömür, cansağlığı və yeni zəfərlər arzulayıram.

*Hörmətlə,*

***Arzu SƏRDARLI,***
***Kanadanın Birinci Millətlər Universitetinin professoru***

❖ ❖ ❖

Əziz Prezidentimiz!

Yubileyiniz münasibətilə Sizi Almaniyanın Münxen şəhərində yaşayan azərbaycanlılar adından ürəkdən təbrik edirəm. Sizə və əzizlərinizə uzun ömür, cansağlığı arzu edirəm. Allah Sizi xalqımıza çox görməsin.

Münxen azərbaycanlıları Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Sizə hər zaman dəstək olub və bundan sonra da olacaqlar.

Fürsətdən istifadə edərək xalqımıza bəxş etdiyiniz Zəfərə görə Sizə “Çox sağ olun!” deyirəm.

Var olun, cənab Prezident!

*Hörmətlə,*

***Səttar KƏRİMOV,***
***Almaniyada fəaliyyət göstərən Münxen Azərbaycanlıları Mədəniyyət Mərkəzinin və Azərbaycan Evinin rəhbəri***



❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, firavanlıq və uğurlar arzulayıram.

1980-ci ildə türk dünyasının tanınmış alimi Turan Yazqan tərəfindən yaradılmış Türk Dünyası Araşdırmaları Vəqfi 41 ildir türkdilli ölkələrdə təhsil, elm və mədəniyyət sahələrində fəaliyyətini davam etdirir.

Biz Azərbaycanda da fəaliyyət göstəririk. Qardaş ölkədə açdığımız təhsil qurumları, Türk Dünyası Bakı Atatürk Liseyi, Azərbaycan Dövlət İqtisad Universitetinin Türk dünyası iqtisad fakültəsi 30 ildir gənclərə mükəmməl təhsil verir.

Cənab Prezident, müstəqilliyinin bərpasından sonra böyük siyasi, iqtisadi, hərbi və strateji problemlərlə üz-üzə qalan Azərbaycanın Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə yaratdığı sağlam təməllər üzərində sürətlə dirçəlməsinə, daha sonra Sizin güclü və qətiyyətli rəhbərliyinizlə mühüm uğurlar qazanmasına, inkişaf etməsinə və dünyada söz sahibinə çevrilməsinə, ən əsası işğal altındakı vətən torpaqlarının Ali Baş Komandanlığınızla azad edilməsinə görə böyük sevinc və qürur hissi duyuruq.

Hörmətli Prezident, Azərbaycanı daha yüksək zirvələrə ucaldacağınıza səmimi-qəlbdən inanır, bu yolda Sizə uğurlar diləyirəm.

*Dərin ehtiramla,*

***Közhan YAZQAN,***
***Türk Dünyası Araşdırmaları Vəqfinin baş direktoru***

❖ ❖ ❖

Çox hörmətli cənab İlham Heydər oğlu!

Sizi 60 illik yubileyiniz münasibətilə “CLAAS Group” şirkətinin bütün kollektivi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Sizə cansağlığı və ali dövləti fəaliyyətinizə uğurlar arzulayıram. Qoy Sizin səyləriniz Azərbaycan Respublikasında rifah, sülh və sabitliyi daha da möhkəmləndirsin!

Fürsətdən istifadə edərək Sizə uzun illərə söykənən əməkdaşlığa görə ürəkdən təşəkkür edirik. Eyni zamanda qeyd etmək istərdik ki, Azərbaycan “CLAAS Group” şirkəti üçün Qafqazda strateji rola malikdir. Biz daim şirkətin kənd təsərrüfatı maşınları və xidmətləri ilə bağlı azərbaycanlı fermerlərin yüksək məmnunluğuna nail olmağa çalışırıq.

*Dərin hörmətlə,*

***Xristian RADONS,***
***Almaniyanın “CLAAS Group” şirkətinin icraçı direktoru, İdarə Heyətinin üzvü***

❖ ❖ ❖

Cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, Azərbaycan Respublikasının firavanlığı naminə ardıcıl və yorulmaz fəaliyyətinizdə uğurlar diləyirəm.

İşğal edilmiş torpaqların azad olunması və bu torpaqlarda müasir texnologiyalar əsasında quruculuq işlərinin aparılması, dünyada yaşayan azərbaycanlıların ümummilli dəyərlər ətrafında birləşməsi həm ölkə daxilində, həm də xaricdəki həmvətənlərimizi hədsiz dərəcədə sevindirir. Son iki yüz ildə xalqımızın həm döyüş meydanında, həm də bütün digər sahələrdə qalib xalq kimi qürur duyması çox sevindiricidir. Bu, Sizin Ali Baş Komandan kimi rəhbərliyiniz sayəsində tam reallığa çevrilmişdir.

Cənab Prezident, Almaniyada yaşayan soydaşlarımız adından Sizi bir daha doğum gününüz münasibətilə təbrik edirəm.

*Hörmətlə,*

***Yaşar MUSAYEV,***
***Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Altmış illik yubileyiniz münasibətilə zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan, ali dövləti vəzifənizdə Sizə yeni uğurlar diləməkdən böyük şərəf hissi duyuruq.

Zati-alinizin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin gənclərinin inkişafı ilə bağlı qəti mövqeyinin ifadəsi olaraq 2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Baş Assambleyasının təsis iclasının keçirilməsi, onun İƏT-in filialı olaraq beynəlxalq təsisat kimi formalaşmasına və inkişafına güclü dəstəyin davam etdirilməsi, eləcə də İƏT Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinə Azərbaycan hökuməti tərəfindən Bakıda evsahibliyi edilməsi regionun digər liderləri üçün nümunədir. Gənclər Forumunun təsis olunmasını Azərbaycan Respublikasının İƏT-ə verdiyi mühüm töhfə kimi qəbul etməyiniz bizi çox qürurlandırır. İƏT Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin İdarə Heyəti olaraq bizə göstərdiyiniz etimadla, dəstəklə fəxr edir, bu etimadı doğrultmaq üçün səylərimizi əsirgəməməyə çalışırıq.

Müzəffər Ali Baş Komandan, Sizin yürütdüyünüz uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan öz ərazilərini işğaldan azad edib və 30 ildən çox davam etmiş ədalətsizliyə son qoyub. Bu Zəfəri təkcə Azərbaycan xalqı deyil, bütün İslam dünyasının gəncləri qeyd edirlər. Zati-alinizin azad edilmiş ərazilərin dirçəldilməsi ilə bağlı xoşməramlı planları və təqdirəlayiq mövqeyi bizdə xoş təəssüratlar yaradır.

Bu əlamətdar gündə İƏT ölkələrinin həmrəyliyinə göstərdiyiniz dəstəyə, eləcə də qardaş Azərbaycan xalqının inkişafı naminə nəcib fəaliyyətinizə görə Sizə bir daha ən xoş arzularımızı bildirməkdən şərəf hissi duyuruq.

Möhtərəm Prezident, Sizə və ailənizə möhkəm cansağlığı, müvəffəqiyyətlər və firavanlıq arzulayırıq.

Sizə olan ən yüksək ehtiramımızı və ən xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

*Hörmətlə,*

***İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin İdarə Heyəti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür və xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Mən Sizin Moskvada yaşadığınız zaman şəxsi tanışlığımızı daim xatırlayır və bununla fəxr edirəm. Moskvada, 1981-ci ilin dekabrında incəsənətə yolumun başlanğıcında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda ilk sərgimin keçirilməsinə göstərdiyiniz kömək və dəstək həmişə yadımdadır, buna görə daim Sizə minnətdaram.

Fürsətdən istifadə edərək 60 və 70 illik yubileylərim münasibətilə mənə göstərdiyiniz diqqətə görə Sizə bir daha sonsuz minnətdarlığımı bildirirəm. Çox sağ olun.

1995-ci ildə həyat yoldaşımla Almaniyaya köçdükdən sonra 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevlə görüşümü və bizə, diaspor nümayəndələrinə Azərbaycanı yaddan çıxarmamaq barədə tövsiyələrini də unutmamışam.

Çox az adam bilir ki, Siz Moskvada “Bakılı” Cəmiyyətinin yaradılmasında iştirak etdiniz və Moskvada yaşayan bütün soydaşlarımızı birləşdirdiniz. Fəxr edirəm ki, Moskvada mənim 40 illik yubiley sərgimin açılışında iştirak etmisiniz.

Biz Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə Almaniyada Azərbaycan Mədəniyyəti Cəmiyyəti yaratmışıq və mədəniyyətimizi, adət-ənənələrimizi təbliğ etməyə çalışırıq.

*Dərin hörmətlə,*

***Əşrəf HEYBƏTOV,***
***Azərbaycanın Almaniyada yaşayan Xalq rəssamı***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Serbiyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin kollektivi və Azərbaycan icması adından, şəxsən öz adımdan Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırıram.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və müəyyən etdiyi dövlətçilik strategiyasının Sizin tərəfinizdən uğurla davam etdirilməsi ölkəmizin hərtərəfli və dinamik inkişafını təmin etmişdir. Bu gün Azərbaycanda həyata keçirilən islahatlar və müxtəlif sahələrdə aparılan quruculuq işləri, siyasi sabitlik doğma ölkəmizin daha da qüdrətlənməsinə təkan verir.

Biz bilirik ki, qarşıda görülməli işlər çoxdur və əminik ki, nəzərdə tutulan bütün planlar Sizin rəhbərliyinizlə uğurla həyata keçiriləcək. Azərbaycanla bağlı tarixi həqiqətlərin, müstəqillik dövrünün uğurlarının beynəlxalq aləmdə, o cümlədən Balkan regionunda təbliğ olunması işində mərkəzimiz Sizin qətiyyətli və çevik xarici siyasət kursunuzdan ilham alır.

Möhtərəm cənab Prezident, bu əlamətdar yubiley münasibətilə Sizə bir daha uzun ömür, möhkəm cansağlığı, Azərbaycanımızın daha da inkişafı naminə məsuliyyətli, çətin və şərəfli fəaliyyətinizdə uğurlar diləyirik.

*Dərin hörmət və ehtiramla,*

***Zərifə ƏLİ-ZADƏ,***
***Azərbaycanın Belqraddakı Mədəniyyət Mərkəzinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Monteneqroda yaşayan azərbaycanlılar adından Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edir, zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, ali və şərəfli vəzifənizdə yeni nailiyyətlər arzulayırıq.

Mənalı ömrünüzün tam yarısı dövlətimizin müstəqillik illərinə təsadüf edir. Azərbaycanın müstəqilliyinin, dövlətçiliyimizin qorunmasında, möhkəmləndirilməsində Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı kimi Sizin müstəsna və tarixi xidmətləriniz var. 44 günlük Vətən müharibəsində yüksək zəkanız, diplomatik məharətiniz və cəsarətinizlə qalib xalqın müzəffər Lideri adını Azərbaycanın müasir tarixinə həkk etdiniz.

Ölkə hüdudlarından kənarda yaşayan diaspor nümayəndələri olaraq dövlətimizin xarici siyasətini xüsusi maraq və diqqətlə izləyir, bu sahədə biz də necə iştirakçı və dəstəkçi ola biləcəyimizi daim düşünür, əlimizdən gələni əsirgəmirik. Sizin uğurlu, qətiyyətli, cəsarətli və ümummilli maraqlarımıza söykənən praqmatik xarici siyasətiniz sayəsində Azərbaycan bu gün multikonfessional, multikultural, tolerant, dövlət-xalq birliyinin mövcud olduğu, öz ərazi bütövlüyünü bərpa etmək gücünə malik, bütün beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşan, etibarlı tərəfdaş olan, siyasi və iqtisadi sabitliyini qoruyan, “Şimal-Cənub”, “Şərq-Qərb” nəqliyyat dəhlizlərinin açarı sayılan, humanitar fəaliyyəti ilə tanınan, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan dörd qətnaməsini 44 gün ərzində təkbaşına yerinə yetirmək qüdrətinə sahib bir ölkə kimi qəbul edilir. Bir Azərbaycan vətəndaşı olaraq digər dövlətlərin ölkəmizin qarşıya qoyduğu təşəbbüs və şərtlərlə hesablaşmaq məcburiyyətində qalmalarından qürur duyuram.

Sizi bir daha səmimi-qəlbdən təbrik edirik. Siz xalqımıza Zəfər sevincini bəxş etdiniz. Uca Tanrı bütün arzularınızı çin etsin, yar və yardımçınız olsun!

*Dərin ehtiramla,*

***Seyran MİRZƏZADƏ,***
***Azərbaycan-Monteneqro İqtisadi və Mədəni Mərkəzinin direktoru***

❖ ❖ ❖

Cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Sizin sərkərdəliyinizlə Vətən müharibəsində şanlı Zəfər qazanan xalqımızın qələbə sevinci ilə yaşadığı, qurub-yaratdığı, öz tarixinin yeni mərhələsinə qədəm qoyduğu bir şəraitdə zati-alinizi doğum gününüz münasibətilə təbrik etmək xüsusi rəmzi məna daşıyır. Siz 2003-cü ildə ilk dəfə dövlət başçısı seçiləndə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik dəyərlərini uca tutaraq bəyan etdiyiniz böyük hədəflərə çatmaq üçün həm beynəlxalq miqyasda, həm də ölkə daxilində ardıcıl siyasət həyata keçirirsiniz. Ölkəmizi bugünkü Qələbəyə çatdıran güclü dövlət konsepsiyasının gerçəkliyə çevrilməsi bu siyasətin möhtəşəm təntənəsini nümayiş etdirir. Bu böyük yolda ən güclü enerji qaynağı dövlət-xalq birliyi və bütövlüyüdür. Vətən müharibəsində rəşadətli ordumuzun dünyaya nümunə olan qəhrəmanlığının və şanlı Zəfərinin başlıca ilham mənbəyi də bu birlik və bütövlükdür. Sizin rəhbərliyinizlə ölkəmiz qısa müddət ərzində böyük tarixi yol qət etmiş, möhtəşəm uğurlar qazanmışdır.

Hörmətli cənab Prezident, Sizi doğum gününüz münasibətilə təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, müstəqil və müasir Azərbaycanımızın inkişafı naminə müvəffəqiyyətlə həyata keçirdiyiniz məqsədyönlü, uğurlu və səriştəli fəaliyyətinizdə daha böyük nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Elsevər MƏMMƏDOV,***
***Benilüks Azərbaycanlıları Konqresinin sədri***

❖ ❖ ❖

Əziz cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Siz yorulmaz əməyiniz və uzaqgörən siyasətinizlə hər zaman Azərbaycanımıza beynəlxalq aləmdə böyük uğurlar qazandırırsınız. Siz Ümummilli Lider Heydər Əliyevin ideyalarını və prinsiplərini həyata keçirərək Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsini uğurla davam etdirirsiniz. Vaxtilə Ulu Öndər də milyonlarla azərbaycanlının Prezidenti olub. Sizə çox təşəkkür edirik ki, dünya azərbaycanlılarını bir araya gətirdiniz, “dəmir yumruğ”unuzla 44 günlük Vətən müharibəsində xalqımıza tarixi Zəfər qazandırdınız. Dünya azərbaycanlılarının heç vaxt belə güclü birliyi olmamışdı. Bu, məhz Sizin siyasi iradəniz sayəsində oldu.

Hörmətli cənab Prezident, Sizin yorulmaz əməyinizi və əzminizi gördükcə biz qürbət ölkədə uğurlu siyasi kursunuza uyğun olaraq daha böyük ruh yüksəkliyi ilə fəaliyyət göstəririk. İnanıram ki, xaricdə doğulub boya-başa çatan bütün həmvətənlərimiz mənimlə eyni fikirdədirlər. Siz dünya azərbaycanlılarının Lideri olaraq bizim üçün qürur mənbəyisiniz. Hər zaman Sizinlə fəxr edirik. Tanrı Sizi qorusun!

*Dərin hörmətlə,*

***Şervin NƏCƏFPUR,***
***Norveçdə fəaliyyət göstərən “CAN” Diaspor Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Yubileyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, zati-alinizə cansağlığı, xoşbəxtlik və firavan ömür arzulayıram.

Siz dünya azərbaycanlılarının Liderisiniz. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu siyasətini layiqincə davam etdirirsiniz. Qloballaşan dünyada, inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə Azərbaycanın mənafeyini müvəffəqiyyətlə müdafiə edirsiniz. Sizin uğurlu xarici siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu getdikcə artır. Həyata keçirdiyiniz müdrik daxili və xarici siyasət nəticəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilib.

Sizin rəhbərliyinizlə ölkəmizdə reallaşdırılan mühüm islahatlar, gündən-günə genişlənən böyük quruculuq və abadlıq işləri, əhalinin rifahını yaxşılaşdırmaq üçün gördüyünüz tədbirlər Sizə xalqın böyük sevgisini qazandırmışdır.

Müzəffər Ali Baş Komandan, Siz həm siyasi arenada, həm də döyüş meydanında Zəfər çalan, Azərbaycanın torpaqlarını 30 illik işğaldan 44 gün ərzində azad edən, ərazi bütövlüyümüzü bərpa edən böyük sərkərdəsiniz. Sizin rəhbərliyinizlə uğurla başa çatan “Dəmir yumruq” əməliyyatı nəticəsində Ermənistanın illərlə yaratdığı “məğlubedilməz ordu” mifi 44 gün ərzində darmadağın edildi, Azərbaycan tarixi Qələbə qazandı.

Cənab Prezident, Sizi bir daha təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Leyla BAĞIRZADƏ,***
***İsveçrə Azərbaycanlılarının Koordinasiya Şurasının koordinatoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, qüdrətli Ali Baş Komandan!

Sizi Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən “Yuta” Azərbaycan Dostluq Təşkilatı adından salamlayır və doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Amerikada yaşayan azərbaycanlı gənc diaspor fəalı olaraq vətənim Azərbaycanın inkişafı, rifahı, müstəqilliyinin daha da möhkəmlənməsi yolunda atdığınız hər bir addımla fəxr edirəm. Yeni yaşınızda bu nailiyyətlərin daha parlaq olacağına əminliyimi bildirərək Sizə ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Cənab Prezident, Sizin dərin siyasi strategiyanız Azərbaycan xalqının illərlə köksündə bəslədiyi həsrətə son qoydu və biz gənclərdə fərəh, iftixar, özünəinam hisslərini gücləndirərək daha iri addımlarla irəliləməyimizə səbəb oldu.

Sizə möhkəm cansağlığı, Azərbaycan naminə gördüyünüz bütün işlərdə müvəffəqiyyətlər arzu edirəm.

*Dərin hörmətlə,*

***Əsmər HÜSEYNOVA,***
***ABŞ-da fəaliyyət göstərən “Yuta” Azərbaycan Dostluq Təşkilatının rəhbəri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Zati-aliləri!

Əlamətdar yubileyiniz münasibətilə Sizə böyük məmnuniyyətlə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Siz Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olaraq Azərbaycan Respublikasının dəyərli Prezidenti kimi vəzifənizi şərəflə yerinə yetirirsiniz. Bu tarixi missiyanı müvəffəqiyyətlə davam etdirməyiniz üçün Sizə uğurlarla dolu daha neçə-neçə illər arzulayıram.

Cənab Prezident, qələbələrinizin təsdiqi bu gün Azərbaycanda gördüklərimizdir. Azərbaycan çox böyük inkişafa nail olmuşdur. Bir tərəfdən, ölkədə çoxpartiyalı siyasi sistem formalaşmış, digər tərəfdən isə, iqtisadi və sosial baxımdan sürətli inkişaf əldə edilmişdir. Azərbaycanı 20 il əvvəl və indi görən insanlar inkişafın fərqindən heyrətlərini gizlətmirlər. Bu, Sizin parlaq nailiyyətlərinizin nəticəsidir.

Hörmətli cənab Prezident, Siz möhtəşəm nəticələrə imza atan, xalqımızın rifahı, xoşbəxtliyi, ən əsası, dünya azərbaycanlılarının birliyi üçün çalışan nüfuzlu Lidersiniz. Azərbaycanın Prezidenti, Ali Baş Komandanı olaraq Sizin uğurlu siyasətiniz sayəsində 44 günlük Vətən müharibəsində müzəffər ordumuz tarixi Zəfər qazandı. Bir şəhid qardaşı olaraq bu şanlı Zəfərin sevincini yaşamaqdan mən və ailə üzvlərimiz qürur duyuruq.

Sizə Azərbaycanımıza və xalqımıza xidmət işində yeni qələbələr arzulayıram.

Yaşasın Azərbaycan Prezidenti!

*Hörmətlə,*

***Əli KAZIMOV,***
***Moskva şəhərinin Qərb inzibati dairəsində Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Rusiya Federasiyasının Beynəlxalq Hüquqşünaslar İttifaqının Krasnoyarsk vilayəti üzrə nümayəndəliyi adından Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edim.

1993-cü ildən bu günə qədər bütün dünya və mütərəqqi bəşəriyyət Azərbaycan Respublikasının siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə əldə etdiyi misilsiz tərəqqinin şahidi olmuşdur.

Seçdiyiniz siyasi kurs Azərbaycan vətəndaşlarının həyatının daim yaxşılaşdırılmasına yönəlib.

Rusiya Federasiyasının Krasnoyarsk vilayətinin Krasnoyarsk şəhərində yaşayan və işləyən azərbaycanlı, Beynəlxalq Hüquqşünaslar İttifaqının Əlaqələndirmə Şurasının üzvü və Krasnoyarsk vilayəti üzrə rəhbəri, Yeni Azərbaycan Partiyasının üzvü olaraq, Sizin - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün bərpası və əzəli tarixi Qarabağ torpaqlarının azad olunması istiqamətində qazandığınız böyük Qələbəmizə görə zati-alinizə dərin minnətdarlığımı ifadə edir və qürur hissi keçirdiyimi bildirirəm.

Bütün dünya üçün bu böyük Qələbə Sizin xalqa, Vətənə - Azərbaycana olan fədakar məhəbbətinizin daha bir danılmaz sübutu oldu.

İcazə verin, Sizə səmimi-qəlbdən cansağlığı və uzun ömür arzulayım.

*Hörmətlə,*

***Ceyhun CƏFƏROV,***
***Rusiya Federasiyasında fəaliyyət göstərən Beynəlxalq Hüquqşünaslar İttifaqının Əlaqələndirmə Şurasının üzvü, Krasnoyarsk vilayəti üzrə rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi 60 illik yubileyiniz münasibətilə böyük qürur hissi ilə səmimi-qəlbdən təbrik edirəm. Azərbaycanın inkişafı yolunda əzmkar fəaliyyətiniz bizim üçün nümunədir. Bu gün Azərbaycan dövlətinin beynəlxalq aləmdə sabitlik və əmin-amanlıq məkanı olaraq nümunə göstərilməsi məhz Sizin sayənizdə mümkün olmuşdur. Fəxr edirik ki, artıq Sizin təşəbbüsləriniz beynəlxalq birlik tərəfindən qəbul edilir. Dünya dövlətləri Sizin qlobal təşəbbüslərinizi özlərinə örnək bilirlər.

Hörmətli Prezident, Sizin siyasi iradənizin nəticəsi olaraq Azərbaycan dövləti koronavirusla və Vətən müharibəsində düşmənlə mübarizədə uğurlu qələbə qazandı. Sizin adınız qüdrətli Lider kimi Zəfər tariximizin salnaməsinə qızıl hərflərlə yazılıb. Bu gün dünya azərbaycanlıları Zəfər çalan sərkərdə olaraq Sizinlə fəxr edirlər. Hər zaman Sizin "dəmir yumruğ"unuzun ətrafında birləşməkdən qürur duyuruq.

Doğma Vətənimizin rifahı naminə yeni və daha böyük işlər görmək üçün Sizə tükənməz enerji və cansağlığı arzulayırıq.

Yaşasın Azərbaycan xalqı!

Yaşasın Müzəffər Ali Baş Komandan!

*Hörmətlə,*

***Ramiz MƏMMƏDOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun Azərbaycan Milli-Mədəni Muxtariyyəti ictimai təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Altmış illik yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar və firavanlıq arzulayıram.

Siz Prezident olaraq Azərbaycan-Rusiya münasibətlərinin hərtərəfli inkişafına çox böyük töhfə vermisiniz. Ölkəmizdə əmin-amanlığın qorunub saxlanmasında və dünya azərbaycanlıları arasında həmrəyliyin möhkəmləndirilməsində əvəzsiz xidmətlər göstərmisiniz. Biz - Rusiya Federasiyasının Tıva Respublikasında yaşayan azərbaycanlılar vətənimiz Azərbaycanla fəxr edirik. Vətənimiz və onun rəhbəri, yəni Sizin haqqınızda xoş sözlər eşitmək bizi çox sevindirir.

Möhtərəm Prezident, Sizə dərin minnətdarlığımı bildirir, doğma Azərbaycanımızın daha da inkişafı üçün səmərəli işlərinizdə uğurlar arzu edirəm.

Yubileyiniz mübarək, möhtərəm Prezident!

*Hörmətlə,*

***Çingiz ƏLİYEV,***
***Rusiya Federasiyasının Tıva Respublikasının Karate Federasiyasının prezidenti, Respublika paytaxtının yerli qanunvericilik məclisinin - Ali Xuralın deputatı***



❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, 60 illik yubileyiniz münasibətilə Sizi təbrik edim və səmimi arzularımı bildirim.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan müstəqil, sabit və mütərəqqi dövlətin təşəkkülündə sanballı nəticələr qazanıb. Sizin qəbul etdiyiniz qərarlar Azərbaycanın rifahına xidmət edən beynəlxalq əlaqələri möhkəmləndirir və genişləndirir.

Sizə əmin-amanlıq, iqtisadi və siyasi sabitlik, möhkəm cansağlığı və tükənməz enerji arzu edirəm.

*Səmimi və dərin hörmətlə,*

***Seyfəddin MƏRDANLI,***
***Rusiyanın "EKOLab" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti, Rusiya Federasiyasının Əməkdar səhiyyə işçisi, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti Federal Dövlət Muxtar ali təhsil müəssisəsinin Epidemiologiya kafedrasının professoru, Dövlət Humanitar-Texnoloji Universitetinin Farmakologiya və əczaçılıq fənləri kafedrasının professoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"Palmali" Şirkətlər Qrupunun çoxsaylı kollektivinin hər bir üzvü adından Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirik. Sizə uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan dövlətinin tərəqqisi və gələcək uğurları naminə həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə gördüyünüz bütün işlərdə yeni-yeni nailiyyətlər arzulayırıq.

Müzəffər Ali Baş Komandan, Siz Vətən müharibəsində əldə edilən böyük Zəfəri Azərbaycanın tarixinə qızıl hərflərlə yazdınız. Bir azərbaycanlı olaraq bununla fəxr edir və qürurlanıram. Sizin rəhbərliyinizlə 44 gün davam edən "Dəmir yumruq" əməliyyatı nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il müddətində qurduğu mifi darmadağın etdi. İşğal altında saxlanılan torpaqlarımız mənfur düşməndən azad edildi. Sizin rəhbərliyinizlə ordumuz bütün dünyaya öz qüdrətini, gücünü, xalqımız isə "dəmir yumruq" olub Sizin yanınızda olduğunu nümayiş etdirdi. Bu şanlı Qələbə Azərbaycan tarixində əbədi qalacaq. Siz 44 günlük Vətən müharibəsinin Zəfər çalmış sərkərdəsisiniz. Biz Sizə hər zaman inanırıq və güvənirik. Bu inam və güvən sarsılmazdır.

Tanrı Sizi, qəhrəman ordumuzu və Azərbaycanımızı qorusun!

*Hörmətlə,*

***Mübariz QURBANOĞLU,***
***"Palmali" Şirkətlər Qrupunun rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Dünyaya müdrik, əvəzsiz şəxsiyyətlər nadir hallarda gəlir. Bunlardan biri də Sizsiniz - Vətənini, millətini sevən, ümumbəşəri dəyərlərə yiyələnən, mütərəqqi və yaradıcı düşünən, Azərbaycanı dünyanın inkişaf etmiş dövlətlərindən birinə çevirən böyük siyasətçi, böyük dövlət xadimi İlham Heydər oğlu Əliyevdir. Sizin sinənizdə döyünən ürək Azərbaycanımızın səadət rəmzidir. Ancaq belə bir ürəyin sahibi bütün məlum çətinliklərə qalib gələ bilərdi və bunu şərəflə bacardı da.

Cənab Prezident, Sizi doğum gününüz münasibətilə təbrik edir, əzmkar fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Natiq İBRAHİMOV,***
***Qazaxıstan Respublikasının Türkistan vilayətində Azərbaycan diasporunun rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Qazaxıstan Respublikasının Kostanay vilayətində yaşayan azərbaycanlılar adından sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Sizin apardığınız müstəqil siyasət nəticəsində Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanmış, ümumdünya müstəvisində özünə layiqli yer tutmuş, ölkə daxilində uzunmüddətli sabitliyə və sürətli iqtisadi inkişafa nail olmuşdur.

Vətən müharibəsindəki Zəfərimiz, işğal altındakı torpaqlarımızın azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması bizi də çox sevindirdi. Həmin ağır və şərəfli günlərdə qardaş Qazaxıstan Respublikasında yaşayan azərbaycanlılar da xalqımızın, dövlətimizin yanında oldular, Azərbaycan həqiqətlərinin başqa xalqların nümayəndələrinə çatdırılmasında öz töhfələrini verdilər.

Əminik ki, yorulmaz fəaliyyətiniz sayəsində Azərbaycan sosial-iqtisadi sahədə, dövlət quruculuğunda, beynəlxalq aləmdə daha böyük nailiyyətlər əldə edəcək.

Hörmətli cənab Prezident, əlamətdar yubileyiniz münasibətilə Sizə uzun ömür, möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Rafail HACIBALAYEV,***
***Qazaxıstan Respublikası Kostanay Vilayəti Azərbaycanlıları İctimai Birliyinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Özbəkistanda yaşayan azərbaycanlılar, bu ölkədə fəaliyyət göstərən Azərbaycan Milli Mədəniyyət Mərkəzi adından Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ürəyində Azərbaycan sevgisi ilə yaşayan bütün azərbaycanlılar vətəndaşı olduqları ölkələrdən asılı olmayaraq, Sizə böyük hörmət bəsləyirlər. Çünki məhz Sizin Ali Baş Komandanlığınızla Azərbaycan Ordusu torpaqlarımızın illərlə davam edən işğalına son qoydu.

Siz postmüharibə dövründə də Azərbaycanı dünyaya sülhsevər ölkə kimi tanıdırsınız. Bu, xalqımıza, dövlətimizə xas olan xüsusiyyətdir, keçmişə nəzər salsaq, demək olar ki, tarixi irsimizdir. Millətini sevən hər bir azərbaycanlı lazım olan anda "Təki Vətən sağ olsun!" deyərək torpaq uğrunda canını qurban verməyə hazır olduğunu da sübut etdi.

Siz eyni zamanda qalib ölkə, Müzəffər Ali Baş Komandan, dünya siyasətinin incəliklərini mükəmməl bilən, təcrübəli dövlət başçısı kimi humanistlik nümayiş etdirərək sülhə tərəfdar olduğumuzu dünya ictimaiyyətinə bəyan edirsiniz.

Cənab Prezident, Ümummilli Liderimiz Heydər Əliyev xarici ölkələrə səfəri zamanı diaspor üzvləri ilə görüşdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına önəm verməyimizi tövsiyə edirdi. Sizi əmin edirik ki, diaspor üzvlərimiz bu istiqamətdə səylərini davam etdirir və daha da gücləndirirlər.

Hörmətli Prezident, Sizə və ailə üzvlərinizə Allahdan möhkəm cansağlığı, uzun ömür, məsuliyyətli işinizdə uğurlar diləyirəm.

Tanrı Sizə yar və yardımçı olsun!

*Hörmətlə,*

***Firdovsi HÜSEYNOV,***
***Özbəkistandakı Azərbaycan Milli Mədəniyyət Mərkəzinin sədri***

❖ ❖ ❖

Möhtərəm Prezident!

Qalib Azərbaycanın, qəlbi daim Vətənlə döyünən dünya azərbaycanlılarının böyük sərkərdəsi.

Yeni tarix yazan, Avrasiyada yeni geosiyasi reallıqlar yaradan və dünya güclərini bu gerçəkliklər, tarixi ədalət qarşısında sayğı göstərməyə vadar edən iradəli dövlət başçımız.

Bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı möhtəşəm ruh yüksəkliyi, birlik ruhu yaşayır. Bu unudulmaz günlərimizin, həmrəyliyimizin, əzmimizin memarı Sizsiniz, cənab Prezident! Müdrik və ardıcıl siyasətiniz sayəsində biz - dünyanın dörd bir yerində yaşayan diaspor üzvləri məğrur, şərəf və ləyaqətini hər şeydən üstün tutan qəhrəman xalqın nümayəndələri olaraq başıuca gəzirik.

İndi Azərbaycanımız üçün də, bizim hər birimiz üçün də yeni qələbələr dövrü başlayıb - Qarabağı cənnətə çevirmək uğrunda gecəli-gündüzlü çalışmaq, hər gün daha bir zəfərə imza atmaq, hər saatda daha bir qarış Vətən torpağını gülüstan etmək kimi hədəflərimiz var. Biz bu mərhələnin hər anında həmişə müntəzir əsgər olaraq yanınızdayıq, cənab Ali Baş Komandanımız!

Cənab Prezident, Siz qətiyyətli baxışları, iti zəkası, "dəmir yumruğ"u, təmkini ilə bütün siyasətçilərə, yurd sevgisi ilə hər birimizə örnək olan sevimli Liderimizsiniz.

Bizə yaşatdığınız qürurun haqqı yalnız ümmansız sevgi və sədaqətlə ödənilə bilər.

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirik. Sizə dəyərli Mehriban xanımla və bütün sevdiklərinizlə bərabər səadət dolu günlər arzu edirik.

*Hörmətlə,*

***Natiq BAĞIROV,***
***Belarusdakı Azərbaycan İcmaları Konqresinin sədri, "Şöhrət" ordenli, Belarusun Əməkdar idman ustası***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı bildirir, Azərbaycan xalqı naminə məsul fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

Ölkəmizin sosial-iqtisadi, dövlət quruculuğu sahələrində və beynəlxalq aləmdə qazandığı bütün nailiyyətlər şübhəsiz ki, Sizin adınız, rəhbərliyiniz altında həyata keçirilən ardıcıl daxili və xarici siyasət ilə ayrılmaz surətdə bağlıdır. Yüksək təşkilatçılıq qabiliyyətiniz, dəqiq strateji siyasətiniz, ən mürəkkəb məsələlərin həllinə uzaqgörənliklə yanaşmanız Sizə nəinki Azərbaycanda, həm də onun hüdudlarından kənarda dərin hörmət və böyük nüfuz qazandırmışdır. Yenilməz iradəniz Vətənimizə, xalqımıza şanlı Qarabağ Zəfərini yaşatmış, milli iftixar hissimizi gücləndirmişdir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək rəhbəri olduğum Azərbaycan-Ukrayna İş Adamları və Sənayeçiləri Birliyi adından və şəxsən öz adımdan Sizə bir daha səmimi-qəlbdən möhkəm cansağlığı, bütün niyyət və istəklərinizin uğurla həyata keçməsini, ölkəmizə isə sülh, firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Əli ƏLİYEV,***
***Kiyevdə fəaliyyət göstərən Azərbaycan-Ukrayna İş Adamları və Sənayeçiləri Birliyinin sədri***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, Aktau şəhərində yaşayan bütün azərbaycanlılar adından və şəxsən öz adımdan Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edim. Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür arzulayıram.

Siz xalqımızı bir araya gətirib ruhumuzu bütövləşdirdiniz, şanlı və şərəfli tarix yazdınız - Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etdiniz. Siz uğurlu siyasətinizlə, iradə və əzminizlə Azərbaycan xalqına Zəfər qazandırdınız, onu qalib xalq etdiniz.

Müzəffər Ali Baş Komandan, Sizi bir daha ürəkdən təbrik edirik. Sizə firavanlıq və müdrik dövlətçilik fəaliyyətinizdə uğurlar, hər bir təşəbbüsünüzdə səmərəli nəticələr arzulayırıq.

*Hörmətlə,*

***Şəmsədin HÜSEYNOV,***
***Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan diasporunun rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Otuz ilə yaxın müddətdə Azərbaycan xalqının erməni işğalından çəkdiyi əziyyətlərə son qoymaq üçün dövlətimizə güc, iqtisadi qüdrət, yüksək döyüş qabiliyyətinə malik ordu lazım idi və Siz Prezident olaraq bütün bunlara addım-addım nail oldunuz. Siz təkcə Azərbaycanın deyil, bütün regionun rifahını və gələcəyini düşünərək bu gün sülh və əməkdaşlıq istiqamətində yorulmaz fəaliyyətinizi davam etdirirsiniz. Siz təkcə öz xalqımız üçün yox, həm də türk dünyası üçün nadir tarixi şəxsiyyətlərdən birisiniz. Siz siyasət aləmində siyasətçilərə, hərb sənətində hərbçilərə, iqtisadiyyat üzrə ən yaxşı iqtisadçılara dərs keçə biləcək dərəcədə böyük istedada maliksiniz.

Cənab Ali Baş Komandan, Sizi - böyük strateqi, qüdrətli sərkərdəni 60 illik yubileyiniz münasibətilə Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun üzvləri adından və şəxsən öz adımdan təbrik edir, çətin və şərəfli fəaliyyətinizdə uğurlar diləyir, ən xoş arzularımızı çatdırırıq. Biz Qələbədən dərhal sonra sosial şəbəkələrdə yüz minlərlə insanın Sizə Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi təşəbbüsünə qoşuluruq. Əminik ki, ən tez zamanda insanların bu arzusu da gerçəkləşəcək.

*Hörmətlə,*

***Nüsrət MƏMMƏDOV,***
***Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Yəhudi İcması adından və şəxsən öz adımdan Sizi yubileyiniz münasibətilə səmimi minnətdarlıq və təşəkkür hissləri ilə təbrik etmək istəyirəm.

Yəhudi inamına görə, insanın doğum günündə Ulu Tanrı qərara alır ki, dünya bu yeni doğulmuş insanın ruhu olmadan mövcud ola bilməz. Sizin timsalınızda bu inamın nə dərəcədə düzgün olduğunu görürük. Siz Azərbaycan yəhudilərinə tolerant münasibətin qarantı olmaqla bərabər, həm də bütün müsəlman aləmində yəhudilərə bu cür münasibəti aşılayırsınız. Bundan əlavə, Sizin qərarlarınız Azərbaycan Yəhudi İcmasının gələcəyini təmin edir.

Azərbaycan dövləti təkcə bu il ərzində iki çox mühüm qərar qəbul edib: Bakı şəhərində yəhudi məktəbinin qismən maliyyələşdirilməsi və yeni mikvanın tikintisinin dəstəklənməsi haqqında. Bu layihələr ənənəvi təhsili və ailə həyatının saflığı qanunlarının yerinə yetirilməsini təmin edir. Bu iki mühüm tövsiyə yəhudi xalqını minilliklər boyu qoruyub saxlayıb. Məktəb və mikva yəhudi icmasına, sadəcə, həyat bəxş etmir, onlar Azərbaycanda yəhudilərin uzunmüddətli və xoşbəxt gələcəyinə ümid bəxş edir, çünki bu, yəhudilərin tamdəyərli həyatı üçün zəruri infrastruktur deməkdir. Biz əminik ki, Ulu Tanrı onun övladlarının həmrəylik şəraitində yaşamasını görəndə səmimi-qəlbdən sevinir. Sizin səyləriniz sayəsində dünyada bütün xalqların və bütün dinlərin nümayəndələrinin dinc şəraitdə yaşadığını və üstəlik, bir-birinə kömək etdiyini görəndə Ulu Tanrı da sevinir, ölkəmizin rəhbərliyinin hər bir arzusunu yerinə yetirməyə, onun güclü iqtisadiyyatını, layiqli təhsilini, həyatın bütün sahələrində tərəqqisini təmin etməyə hazırdır.

Daimi qayğınıza və dəstəyinizə görə Sizə hədsiz təşəkkür edirik. Qoy Ulu Tanrı Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uzun ömür, bütün təşəbbüslərinizdə uğurlar və firavanlıq bəxş etsin! Əlbəttə, arzu edirik ki, Allah Sizin övladlarınıza və nəvələrinizə hər cür nemət bəxş etsin, Siz isə onlara baxıb xoşbəxt olasınız.

*Hörmətlə, ən xoş arzularla,*

***Şneor SEQAL,***
***Avropa Yəhudilərinin Bakı Dini İcmasının baş ravvini***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Adıgey Respublikası və Krasnodar diyarı Müsəlmanlarının Ruhani İdarəsi adından və şəxsən öz adımdan Sizi yubileyiniz - anadan olmağınızın 60 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Bizim təbriklərimizi Sizə dərin hörmət və minnətdarlıq əlaməti kimi qəbul edin. Biz Sizin təkcə Azərbaycan Respublikasında deyil, bütün Qafqazda İslamın qorunub saxlanması və inkişafı üçün səylərinizi yüksək qiymətləndiririk. Sizin müdrikliyiniz və həyat təcrübəniz bizim dinimiz əsasında Qafqaz xalqlarının mənəvi birliyinin möhkəmlənməsinə xidmət edir.

Sizə, doğmalarınıza və yaxınlarınıza səmimi-qəlbdən aydın səma, möhkəm cansağlığı, qəlb hərarəti, bolluq, rifah və Ulu Tanrının mərhəmətini diləyirik.

Qoy həyatınızın qarşıdakı illəri nəzərdə tutduğunuz planların gerçəkləşməsi illəri olsun, Azərbaycan Respublikasına çoxlu xoşbəxt günlər və firavanlıq gətirsin, sevincinizi artırsın, xeyirxah işlər görmək imkanı bəxş etsin.

Mərhəmətli və qadir Allah Sizi qorusun!

*Hörmətlə,*

***Askarbiy KARDANOV,***
***Rusiya Federasiyası Adıgey Respublikası və Krasnodar diyarının müftisi***

# Milli Məclisin komitələrinin birgə iclasında “Media haqqında” qanun layihəsinin geniş müzakirəsi keçirilib



Dekabrın 28-də Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında “Media haqqında” qanun layihəsinin ikinci oxunuşdan sonra geniş ictimai müzakirələri keçirilib.

Ölkənin aparıcı media orqanlarının və qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirak etdiyi iclası açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, “Media haqqında” qanun layihəsi birinci və ikinci oxunuşlarda çox geniş müzakirə olunub, deputatlar çoxlu sayda təkliflər irəli sürüblər. Bu layihənin birinci oxunuşu yenə bu komitələrin birgə iclasında ictimai müzakirə formatında olub. İşçi qrupunun üzvləri və deputatlar media nümayəndələri ilə 10-a yaxın görüş keçiriblər.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, bu qanun medianın konstitusiyasıdır, təməl qanunudur. Komitə sədri iştirakçıları müzakirələrdə bu qanunun qəbulundan sonrakı dövrdə addımların nədən ibarət olması ilə bağlı fikirlərini bildirməyə üstünlük verməyə çağırıb.

Müzakirələr zamanı media nümayəndələri çıxış edərək fikir və təkliflərini səsləndiriblər. Qeyd edilib ki, “Media haqqında” qanun layihəsi heç bir halda söz, fikir və mətbuat azadlığı kimi əsas hüquqların məhdudlaşdırılmasına xidmət etmir. Qanun layihəsində yer alan imtiyaz və güzəştlər media subyektlərinin və jurnalistlərin peşəkarlığının artırılmasına zəmin yaradacaq.

İclasda səslənən fikirlərə münasibət bildirən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, layihə qəbul olunacağı təqdirdə qanun media sahəsində bütün istiqamətlər üzrə islahatların həyata keçirilməsi üçün zəruri hüquqi platforma rolunu oynayacaq və prosesin sürətlə həyata keçirilməsinə, boşluqların aradan qaldırılmasına zəmin yaradacaq. Media sahəsində hüquqi çərçivəni müəyyən edəcək qanunun qəbulundan sonra müvafiq normativ aktların qəbul olunacağını bildirən Əhməd İsmayılov bu sənədlərin də tezliklə müzakirəyə çıxarılacağını bildirib.Vurğulanıb ki, media subyektlərinin və jurnalistlərin fəaliyyətinin hüquqi müstəvidə tənzimlənməsinə imkan yaradacaq sənəd həm də mediadakı qeyri-müəyyənliklərə son qoyacaq, KİV-in peşəkarlığının artırılmasını stimullaşdıracaq.

İclasda iştirak edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, müzakirəyə çıxarılan layihənin ölkənin milli qanunvericilik sistemində fundamental hüquqi bazası mövcuddur. Hazırda qüvvədə olan “Kütləvi informasiya vasitələri haqqında” və “Televiziya və radio yayımı haqqında” qanunlar uzun müddət Azərbaycanda media sahəsində fəaliyyəti tənzimləyən faydalı sənədlər olub. Bu qanunlar əsasında vahid bir sənədin hazırlanması zamanın tələbindən irəli gələn zərurətdir.

Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov qanun layihəsi ətrafında aparılan müzakirələr barədə danışıb və nəticədə konsensusun əldə edildiyini deyib.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli iclasda çıxış edərək bildirib ki, qanunda insan hüquqları baxımından hər hansı məhdudlaşdırıcı norma mövcud deyil. Əvvəlki qanuna müsbət rəylər verilib, yeni qanunda həmin normalar qorunub saxlanılıb.Yeni normalar isə tənzimləyicidir, məhdudlaşdırıcı deyil. Bildirilib ki, Azərbaycanın Avropa təsisatları ilə insan hüquqları sahəsində əməkdaşlığı uğurla davam edir və yeni qanun da bunun ən yaxşı nümunələrindən biridir.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc “Media haqqında” qanun layihəsi ilə bağlı müxtəlif platformalarda aparılan müzakirələr, səsləndirilən fikirlər barədə məlumat verib. Komitə sədri güclü medianın dövlətin də güclənməsində vacib rol oynadığını söyləyib. O, qanun layihəsinin media azadlığının gücləndirilməsi, sağlam jurnalistikanın inkişafı, xaricdən asılılığın aradan qaldırılması nöqteyi-nəzərindən əhəmiyyətini qeyd edib, qanun layihəsinin hüquqi cəhətdən yaxşı hazırlandığını bildirib.

***Ülkər XASPOLADOVA,***
***“Azərbaycan”***

# Azərbaycanda pandemiya nəzarətdə saxlanılır

Dekabrın 28-də Nazirlər Kabineti yanında Operativ Qərargahın növbəti brifinqi keçirilib.




AZƏRTAC xəbər verir ki, brifinqdə COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycanda əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə zəruri tədbirlərin davam etdirildiyi bildirilib. Vurğulanıb ki, ölkəmizdə pandemiya nəzarətdə saxlanılır, vəziyyət sabit və idarəolunandır, gündəlik yoluxanların, xəstəxanada olanların sayı digər ölkələrlə müqayisədə aşağı səviyyədədir. Azərbaycanın müasir səhiyyə infrastrukturu və dövlətin koronavirusla səmərəli mübarizə məqsədilə həyata keçirdiyi tədbirlər öz müsbət nəticələrini göstərir.

Diqqətə çatdırılıb ki, Nazirlər Kabineti yanında Operativ Qərargah öz qərarlarında bu sahədə elmi araşdırmaların nəticələrinə əsaslanır. Təcrübə və elmi araşdırmaların nəticələri təsdiq edir ki, tam vaksinasiya insanlarda virusa qarşı güclü immunitet formalaşdırır. Lakin ikinci dozadan 4 ay ötdükdən sonra immunitet zəifləməyə başladığına görə, əlavə - “buster” doza vurulması lazımdır. Hazırda dünyada geniş yayılmağa başlamış “Omikron” ştamının Azərbaycanda müəyyən edilməsi ilə bağlı hər hansı fakt yoxdur. Lakin bu ştamın region ölkələrində müəyyən olunduğunu nəzərə alaraq, onun ölkəmizə də keçməsi zaman məsələsidir. “Omikron” böyük sürətlə yayılır və əvvəlki “Delta” ştamından 4 dəfə daha yoluxdurucudur. O, “Deltadan” 70 dəfə sürətlə artır, inkubasiya dövrü isə cəmi 48 saat təşkil edir (“Delta”nın inkubasiya dövrü 72 saatdır).

Vurğulanıb ki, “Omikron” ştamının sürətlə yayılması ilə bağlı dünyada vəziyyət müxtəlifdir. Bir sıra ölkələr lokdaun və sərt məhdudiyyətlərlə bağlı qərarlar qəbul ediblər. Niderlandda faktiki olaraq Milad və Yeni il şənlikləri ləğv olunub, yanvarın ortalarına kimi mağazalar, hotellər, fitnes zalları, kinoteatrlar və muzeylərə məhdudiyyətlər tətbiq olunub. Danimarkada dekabrın 27-dən yanvarın 17-nə kimi konsert zalları, teatrlar, kinoteatrlar, muzeylər və qalereyalar qapadılıb. Restoranlar yalnız axşam saat 11-ə kimi işləyə bilər. Milad şənlikləri qadağan olunub. Yunanıstanda Milad şənlikləri qadağan edilib, infeksiyanın geniş yayılması hökuməti 60 yaşdan yuxarı əhalini məcburi vaksinasiya etməyə vadar edib. Əks təqdirdə 100 avro məbləğində cərimə sanksiyası tətbiq olunur. Portuqaliyada restoranlar və barlar qapadılıb. Çexiyada bayram yarmarkaları qadağan edilib, iaşə obyektləri axşam saat 10-a kimi fəaliyyət göstərə bilər. Böyük Britaniyada ənənəvi Milad şənlikləri təxirə salınıb. Fransada dekabrın 10-dan bütün klublar 4 həftə müddətinə qapadılıb. Yanvarın 15-dən yaşlı əhali “buster” doza ilə vaksin olunmalıdır. Parisdə Yeni illə bağlı konsertlər və şənliklər qadağan edilib. İspaniyada hər yerdə maskadan istifadə tətbiq olunub. Almaniyada klublarda insanların 10 nəfərdən artıq yığışmaması ilə bağlı limit müəyyən edilib. Böyük Britaniyadan ölkəyə gələn turistlərə 48 saatlıq test və 14 günlük təcrid tələb olunur. Avstriyada vaksinasiya sertifikatı olmayan şəxslərə yalnız işə çıxmaq və həkimə getmək üçün evdən bayıra çıxmağa icazə verilir. Hökumət gələn ilin fevralından əhali üçün məcburi vaksinasiya tədbirlərini nəzərdən keçirir.

Qeyd olunub ki, ilkin nəticələrə görə, “Omikron” öldürücü gücünə görə əvvəlki ştamdan güclü deyil. Nəzərə alınmalıdır ki, “Omikron”un yoluxdurma qabiliyyəti yüksək olduğuna görə, virusa yoluxmuş insanların sayında ciddi artım ola bilər ki, bu da səhiyyə sisteminin yüklənməsinə, mürəkkəb durumun yaranmasına və ölüm hallarının çoxalmasına səbəb ola bilər. Hazırda COVID-ə qarşı ən təsirli vasitə vaksinasiya və gigiyenaya riayət olunmasıdır (əllərin tez-tez yuyulması, maskadan istifadə, məsafə saxlanması). Təcrübə göstərir ki, vaksinasiya, həqiqətən də, kömək edir. COVID-dən həyatını itirən insanların 90 faizi vaksin olunmamış şəxslərdir.

Nəzərə çatdırılıb ki, Operativ Qərargah əhalinin təhlükəsizliyinin daha səmərəli qorunması sahəsində tədbirləri davam etdirir. Bununla əlaqədar 2022-ci il fevralın 15-dən vaksinasiya sertifikatının müddəti 6 ay müəyyən edilir. 5 aydan sonra “buster” doza vurula bilər. “Buster” dozadan sonra vaksinasiya sertifikatının və immun sertifikatın təsiri hələlik qeyri-müəyyən müddətə kimi müəyyən edilir. Azərbaycanda digər ölkələrdəki kimi sərt tədbirlər tətbiq olunmayıb. Lakin bayram günlərində insanlar daha çox qapalı məkanlarda vaxt keçirəcəklər. Buna görə də təhlükəsizlik tədbirləri unudulmamalı, karantin rejiminin tələbləri yerinə yetirilməlidir. Yoluxma dalğasının genişlənəcəyi və əhaliyə, ölkənin səhiyyə sisteminə təhlükə yaranacağı təqdirdə karantin rejiminin sərtləşdirilməsi mümkündür.

# *Şahmar MÖVSÜMOV:* “Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitdir”

“Vaksinasiyanın yetərincə qoruması haqqında artıq bizim əlimizdə kifayət qədər statistik məlumatlar var. Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitdir. Bu sabitlik təbii ki, həm vaksinasiya, həm də qaydalara riayət olunmaqla əldə edilib. Ona görə də yeni müddətin tətbiq olunması haqqında Operativ Qərargahın müvafiq qərarı bu yaxınlarda imzalanacaq və yerləşdiriləcək”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 28-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

“Vəziyyətimiz sabitdir, amma xahişimiz odur ki, heç kəs düşünməsin artıq pandemiya bitdi və biz qaydalara riayət etməyə bilərik. Birlikdə bu xəstəliyin öhdəsindən gəlmək üçün hamımız qaydalara riayət etməliyik, vaxtında vaksinimizi vurdurmalıyıq. İkinci dozadan sonra 6 aya yaxınlaşan şəxsləri təcili olaraq üçüncü dozanı vurdurmağa çağırırıq”, - deyə Şahmar Mövsümov qeyd edib.




* * *

*“Omikron” ştamının digər ölkələrdə yaratdığı problemlərin Azərbaycanda da baş verməsi ehtimalı kifayət qədər yüksəkdir. Biz bunu anlamalıyıq. Vəziyyəti nəzarətdə saxlamağın yeganə yolu vaksinasiyadır. Elmi-tədqiqatlar, dünyanın aparıcı universitetlərinin tədqiqat mərkəzlərinin son araşdırmaları göstərir ki, vaksinasiya iki dozadan sonra kifayət qədər yüksək qoruyucu qüvvəyə malikdir. Amma eyni zamanda həmin tədqiqatlar nəticəsində görmək olur ki, artıq ikinci dozadan 4 ay sonra immunitet azalmağa başlayır. Yəni qoruyucu immunitetin tədricən azalması müşayiət olunur. Bunun üçün üçüncü dozanın - “buster” dozanın vurulması ciddi tövsiyə edilir. “Buster” dozanın vurulması prosesi Azərbaycanda da başlayıb. Ölkəmizdə artıq 1 milyon 200 mindən çox vətəndaş “buster” dozanı alıb. Bu proses davam edir”.*

Bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 28-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

Şahmar Mövsümov deyib ki, eyni zamanda bu prosesdə daha çox qoruyucu, ehtiyatlı yanaşmanı tətbiq etmək məqsədilə hazırda istifadə olunan COVID pasportlarının, vaksinasiya və immunitet sertifikatının vaxtına məhdudiyyət qoyulur. Fevralın 15-dən COVID pasportlarının ikinci dozasından sonra müddəti 6 ay müəyyən edilir. İkinci dozadan 6 ay keçdikdən sonra COVID sertifikatı artıq öz qüvvəsini itirmiş olur. Bildiyimiz kimi, hazırda müəyyən yerlərə yalnız COVID pasportu ilə daxil olmaq mümkündür. Təbii ki, vaxtı keçmiş COVID pasportla artıq həmin məkanlara daxil olmaq mümkün olmayacaq. Fevralın 15-dək bütün vaksin sertifikatları qüvvədə qalır. Hazırda “buster” dozanı ikinci dozadan 5 ay sonra vurmaq mümkündür. Eyni zamanda Azərbaycanda immunitet sertifikatının müddəti 6 ay müəyyən edilib. Yenə də bir “buster” doza vurmaqla immunitet sertifikatının müddəti uzadılır.

* * *

*“Operativ Qərargah bütün qərarlarını elmi tədqiqatlara əsaslandırır və dünyadakı bütün elmi qərarları diqqət mərkəzində saxlayır. Ona görə də “Omikron” ştamının yaranması və sürətlə yayılması təbii ki, bizdə də narahatlıq doğurur. Bir çox ölkələrə nəzər saldıqda görürük ki, bu yeni ştamın həddindən artıq yüksək yoluxduruculuğunun olması, yəni əvvəlki “Delta” ştamına nisbətən dörd dəfə daha yoluxdurucu olması və daha sürətlə yayılması digər ölkələrdə də həmin narahatlığı doğurub”.*

Bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 28-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

Bir neçə ölkədə son iki həftə ərzində tətbiq olunmuş məhdudiyyətlər haqqında məlumat verən Prezidentin köməkçisi bildirib: “Demək istəyirəm ki, vəziyyət gərgin olaraq qalır. Azərbaycanda ciddi məhdudiyyətlərin tətbiq olunması barədə hər hansı bir qərar yoxdur. Təbii ki, bizdə vəziyyət sabitdir. Azərbaycanda məhz uğurlu vaksinasiya strategiyası, kifayət qədər düşünülmüş ölkəyə xaricilərin daxil olması sistemi mövcuddur. Biz özümüzü qorumaqda müvəffəqiyyət qazandığımızı hesab edirik. Bildiyiniz kimi, son ay ərzində bizdə yoluxma sayları aşağıya doğru gedir”.

# Hadrutda Komando briqadasının yaradılması Ermənistan üçün çəkindirici amildir

“Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dekabrın 24-də Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Şuşa şəhərinə səfəri onun 60 illik yubileyi günündə baş verdiyindən xüsusi diqqət çəkir. Dövlət başçısı Hadrut qəsəbəsində Komando briqadası üçün hərbi hissənin açılış mərasimində iştirak etdi, Şuşa şəhərində Cıdır düzündə isə ona 60 illik yubileyi münasibətilə göndərilmiş təbriklərə cavab verdi, eləcə də Yuxarı Gövhər ağa məscidini ziyarət etdi və Şuşada dördyaşlı uşaqla səmimi söhbət etdi. Prezidentin öz ad gününü xalqla, xüsusilə əhalinin həssas təbəqələri ilə birlikdə keçirməsi artıq ənənə halına çevrilib. Dövlət başçısı 50 illik yubileyini də Ağcabədi rayonunda məcburi köçkünlərin əhatəsində qeyd etmişdi”.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib.

O bildirib ki, Prezident İlham Əliyevin öz ad günlərini və yubileylərini bu tərzdə qeyd etməsi Prezident-xalq, iqtidar-vətəndaş birliyinin və Ali Baş Komandanla ordu birliyinin ən bariz rəmzlərindəndir. Bu, həm də Vətən müharibəsində yazdığımız qəhrəmanlıq salnaməmizin, dastana dönmüş Şuşa uğrunda döyüşümüzün təməlində dayanan Prezident-Ordu-Xalq birliyinin təcəssümüdür.

A.Əliyev qeyd edib ki, Hadrut səfəri zamanı yeni yaradılmış Komando briqadası üçün hərbi hissənin açılışı oldu. Komando briqadasının yaradılması Azərbaycan Ordusunda bir yenilikdir. Bu fakt ordu quruculuğunun, hərbi qüdrətimizin daim yüksək səviyyədə saxlanmasının və hərbçilərimizin peşəkarlıq səviyyəsinin müntəzəm surətdə artırılmasının müharibədən sonrakı dövrdə də dövlətin əsas prioritetlərindən biri kimi aktual olaraq qaldığını göstərir. Bunu Prezident İlham Əliyev Hadrutda açıq şəkildə bəyan edərək dedi: “Bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq”.

Milli Məclis Sədrinin müavini diqqətə çatdırıb ki, hazırkı şəraitdə hərbi qüdrətimizin və ordumuzun hazırlıq səviyyəsinin gücləndirilməsi, ümumən, Komando briqadasının yaradılması isə xüsusən erməni tərəfi üçün çəkindirici amil kimi çıxış edir. Vətən müharibəsində darmadağın edilməsinə baxmayaraq, Ermənistanda müəyyən dairələr hələ də revanşist bəyanatlar səsləndirirlər, həmçinin bizə qarşı bir neçə dəfə silahlı təxribatlar törədilib. Həmin təxribatların qarşısı ordumuz tərəfindən qətiyyətlə və yüksək peşəkarlıqla alınıb. Gələcəkdə də istənilən belə təxribata layiqli cavab vermək və düşməni belə əməllərdən çəkindirmək üçün Azərbaycan Ordusunun təchizatı və hazırlığı, eləcə də hərbçilərimizin şəxsi peşəkarlığı hər zaman yüksəldilməlidir. Müzəffər Ali Baş Komandan Hadrutdan Ermənistana bir daha xəbərdarlıq etdi. Bildirdi ki, əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaq.

“Bu baxımdan Hadrutda komando hərbi hissəsinin açılışı mühüm hadisədir. Çətin coğrafi şəraitinə görə və Şuşaya doğru irəliləmək nöqteyi-nəzərindən Hadrut Vətən müharibəsi zamanı xüsusi hərbi-strateji və rəmzi əhəmiyyətə malik olmuşdur. Erməni tərəfi Hadrutun Azərbaycan Ordusu tərəfindən azad olunduğunu bir neçə gün inkar etmiş və Hadrutun itirilməsilə barışa bilmədiyinə görə hər vəchlə onu ört-basdır etməyə çalışmışdır. Ona görə də Hadrut təkcə Ermənistan ordusunun məğlubiyyətini deyil, həm də Ermənistanın yalan və şayiələrinin, uydurduqları müxtəlif miflərin ifşa olunmasının rəmzidir. Prezidentin qeyd etdiyi kimi, “Hadrut azad ediləndən sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət almışdır”. Hadrut və Şuşa keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə aid idilər. Məhz buna görə Azərbaycanın Hadrut və Şuşanı azad etməsi olduqca önəmli, strateji bir mərhələ idi”, - deyə A.Əliyev bildirib.

Onun sözlərinə görə, Hadrut və Şuşa səfərlərinin bir mənası da odur ki, bir tərəfdən, dövlət başçısı İlham Əliyev Prezident kimi işğaldan azad edilmiş ərazilərimizi, o cümlədən Şuşa və Hadrutu bərpa edir, yenidən qurur, digər tərəfdən isə, Ali Baş Komandan kimi ordu quruculuğunu davam etdirərək hərbi qüdrətimizi artırmaqla yenidən tikilən Qarabağa, Şərqi Zəngəzura və digər torpaqlarımıza qarşı ola biləcək təhdidləri bəri başdan neytrallaşdırır.

# Şüvəlanda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə uşaqlar üçün bayram tədbiri təşkil edilib

Dekabrın 28-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzində (UADM) Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbirlər keçirilib.



Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə şəhid və qazi övladları, xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqlar və mərkəzin benefisiarları iştirak ediblər.

Dövlət Komitəsinin sədri Bahar Muradova tədbir iştirakçılarını salamlayaraq, hər kəsi bu əlamətdar günlər münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb. O, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əhəmiyyətini, həmvətənlərimizin birliyini, o cümlədən ölkəmizin son illər ərzində əldə etdiyi uğurları diqqətə çatdırıb.

B.Muradova bildirib ki, Azərbaycan dövləti, Prezident İlham Əliyev, Birinci vitse-prezident xanım Mehriban Əliyeva tərəfindən uşaqların xoşbəxt və firavan yaşaması, əsl vətəndaş kimi yetişmələri üçün lazım olan hər bir şərait təmin edilir. Azərbaycanın Vətən müharibəsini böyük Qələbə ilə başa vurduğunu, hazırda işğaldan azad olunan torpaqlarımızda genişmiqyaslı quruculuq işlərinin aparıldığını deyən komitə sədri bildirib ki, vaxtilə Qarabağdan didərgin düşmüş uşaqlar indi öz evlərinə qayıdacaqlar və bu bayramı daha yüksək əhvali-ruhiyyə ilə keçirəcəyik. Bahar Muradova 2022-ci ildə də ölkəmizin böyük uğurlar əldə edəcəyinə əminliyini bildirib.Tədbir çərçivəsində uşaqlar üçün bədii-əyləncəli proqram təşkil olunub, onların hazırladıqları kompozisiyalar, rəqs nümunələri nümayiş etdirilib. Uşaqlara hədiyyələr və bayram sovqatları təqdim olunub.

Ümumilikdə, 100-dək uşağın iştirak etdiyi tədbirin sonunda xatirə fotoları çəkdirilib.



# Müzəffər Komandan, modern ordu, peşəkar savaşçı

## İlham Əliyevin ordu quruculuğu prosesi yeni mərhələyə qədəm qoyub

*Əvvəli 1-ci səh.*

Dekabrın 24-də Ali Baş Komandan İlham Əliyevin Hadrutda açılışını etdiyi Komando briqadası ilə tanışlıq zamanı söylədiyi fikirlərə əsasən deyə bilərik ki, ordumuz müasir təkmilləşdirmə prosesindədir.

### Komando briqadası - silahlı qüvvələrin ən etibarlı və seçmə birləşməsi

Komando briqadasının təyinatına nəzər yetirsək görərik ki, burada yalnız xüsusi təyinatlı hərbçilər fəaliyyət göstərəcək. Bütün ölkələrdə belə xüsusi təyinatlılar demək olar silahlı qüvvələrin ən etibarlı və seçmə birləşməsi sayılır.

Ölkəmizdə xüsusi coğrafi yerlərdə Komando hərbi hissəsinin açılması isə o deməkdir ki, bundan sonra silahlı qüvvələrimiz ərazilərimizin təhlükəsizliyinin təmin olunması üçün daha da təkmilləşəcəklər.

Komando briqadası ən son hərbi avadanlıq və silahla təchiz edilmiş müqaviləli mütəxəssislərdən ibarət daim hazırlıqlı, yüksək mobil hava-desant hücum birləşməsidir. Onlar günün istənilən vaxtında həm dağlıq, həm meşəlik ərazilərdə, həmçinin şəhər şəraitində hər an baş verə biləcək silahlı münaqişələrdə dərhal döyüş istifadəsinə hazırdılar. Bu briqadalar təcrid olunmuş və ya əsas qüvvələrdən ayrı qaldığı halda vahid informasiya kommunikasiya məkanında qalıb, döyüş əməliyyatlarını aparmağa qadirdilər.

Prezident də bildirdi ki, Hadrutda bu hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Azərbaycanda bir çox Komando briqadaları yaradılır və onlar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar: "Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaq".

### Hadrutdan düşmənə nəzarət olunacaq

Xocavənd rayonunun Hadrut qəsəbəsində belə bir hərbi hissənin yaradılması çox böyük əhəmiyyət daşıyır. Çünki Prezidentin də qeyd etdiyi kimi, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinə daxildir. Yəni Hadrut separatçı-terrorçu rejimin tör-töküntülərinin qaldığı ərazilərə çox yaxındır. Bu ərazidən həm separatçılara nəzarət etmək, hətta gələcəkdə antiterror əməliyyatı üçün istifadə etmək olar.

"Bu gün Hadrutda yeni hərbi hissənin açılması bir daha demək istəyirəm ki, çox əlamətdar hadisədir. Həm ona görə ki, bu bölgə strateji əhəmiyyət daşıyır; Hadrutda bizim güclü silahlı birləşməmiz təhlükəsizliyimizi, ölkəmizin təhlükəsizliyini qoruyacaq, - digər tərəfdən ona görə ki, bu, azad edilmiş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olmuş yerdə yerləşir. Eyni zamanda bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq".

Təkcə 2022-ci il üçün dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərclərinin 4 milyard 499 milyon 238,9 min manat olması da bunu təsdiqləyən reallıqdır.

Prezident onu da bildirdi ki, müharibədən sonra imzalanmış yeni müqavilələr də icra edilir və artıq Azərbaycan Ordusunun arsenalına ən müasir silahlar, texnikalar gətirilir. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması, onların mənzil-məişət problemlərinin həlli də həmişə diqqət mərkəzindədir. Bu ilin sonuna qədər 130 hərbçi ailəsinə yeni mənzillər veriləcək.

Bütün bunlar onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Əksinə, müharibə təcrübəsi Azərbaycana güclü və zəif tərəfləri göstərdi. Ona görə də savaşdan sonra ordumuz daha da modernləşir.

### Azərbaycan Ordusu daha qüdrətli hərbi gücə çevriləcək

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə müasir hərbi hissələr









yaradılır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Azərbaycan" qəzetinə verdiyi məxsusi müsahibəsində məhz bu məsələlərə toxunaraq qeyd etmişdi ki, müharibədən sonra Ali Baş Komandan Azərbaycan Ordusu qarşısında yeni tapşırıqlar qoyub və hərbi islahatların növbəti mərhələsinin başlanması barədə göstəriş verib.

Nazirin sözlərinə görə, Prezident İlham Əliyev modernləşmə, silahlanma və hazırlıq sahələrində ordunun ən yüksək göstəricilərə sahib olması üçün konkret plan və tədbirlər hazırlayıb, onların təxirəsalınmaz icrasını tapşırıb: "Ali Baş Komandanın etimadını ən böyük məsuliyyət kimi qəbul edən Azərbaycan Ordusu islahatların yeni mərhələsi nəticəsində daha da güclənəcək, tam modern və qüdrətli hərbi gücə çevriləcək".

Ümumiyyətlə, peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Bu işi yüngülləşdirən və əvvəlcədən də nəticənin uğurlu olacağına təminat verən amil Ali Baş Komandanın ordu quruculuğunu prioritet məsələ elan etməsi, bu proseslə bağlı səmərəli ideyaların, aydın təsəvvürlərin və onun rəhbərliyi altında aparılan hərbi islahatların, atılan addımların konkret istiqamətləri üzrə dəqiq proqramın olmasıdır. Həmçinin yeni hərbi islahatlar və quruculuq tədbirləri birbaşa olaraq Prezidentin şəxsi nəzarəti, diqqəti və himayəsi altındadır. Bu isə, ilk növbədə, məsuliyyət, səmərəlilik və şəffaflıq kimi meyarların təmin edilməsini nəzərdə tutur.

Bu gün Azərbaycan regionda ən güclü orduya malik ölkə statusunu daşıyır. Cənubi Qafqazda ən güclü ordunun Azərbaycana məxsus olması həm region, həm də dünya dövlətləri tərəfindən etiraf olunur. Respublikamız Silahlı Qüvvələrin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir.

Həyata keçirilən uğurlu proseslər, eləcə də müasir texnologiyaların tətbiqi ilə qoşunlarda yaradılan avtomatlaşdırılmış komanda idarəetmə məntəqələri Silahlı Qüvvələrin bütün qoşun növlərinin dayanıqlı, operativ, gizli və fasiləsiz idarə olunmasına imkan yaradıb. Hərbi hissələrin, əsasən də cəbhə xəttindəki bölmələrin yeni növ silah, döyüş texnikası və digər hərbi vasitələrlə təchiz edilməsi, raket və artilleriya qoşunlarının arsenalında olan müasir raket kompleksləri və atəşi idarəetmə sistemləri qoşunların döyüş qabiliyyətini xeyli yüksəldərək düşmənin canlı qüvvəsini, döyüş texnikasını və hərbi infrastrukturunu məhv etmək imkanlarını genişləndirib.

Bütün bunlar bir daha təsdiq edir ki, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı yüksələn, təminat və təchizatı xeyli təkmilləşən Azərbaycan Ordusu xalqın güvənc ünvanına çevrilib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# İnkişaf və zəfər yolu

## İlham Əliyevin rəhbərliyi ilə gedilən bu yol xalqımıza möhtəşəm uğurlar və qələbələr bəxş edir

*Əvvəli 1-ci səh.*

Bu yolda Prezident İlham Əliyev Azərbaycanın kompleks inkişafını təmin etdi, beynəlxalq miqyasda respublikamızın mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi, Ermənistan üzərində siyasi-diplomatik üstünlüyə nail oldu. İlham Əliyevin yürütdüyü siyasət milli həmrəyliyimizi daha da möhkəmləndirdi. Xalqımız milli amallar, torpaqlarımızın azadlığı uğrunda öz rəhbərinin ətrafında daha sıx səfərbər oldu.

İlham Əliyev torpaqlarımızın azad edilməsi üçün bütün cəbhələrdə mübarizə apardı və hər zaman bəyan etdi ki, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazilərimiz işğaldan azad ediləcək və məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar. Hələ 10 il əvvəl, 2011-ci il dekabrın 24-də - 50 illik yubileyi günündə Ağcabədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan məcburi köçkünlər üçün salınan yeni yaşayış qəsəbəsinin açılışında iştirak edən Prezident İlham Əliyev deyirdi: "Bu, müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki, işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm. Biz öz ərazi bütövlüyümüzü mütləq bərpa edəcəyik. Mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, bu, sadəcə olaraq sözlər deyil, sadəcə olaraq bizim arzularımız deyil, bu, həqiqətdir".

Azərbaycan Prezidenti öz siyasəti, öz qətiyyəti ilə bu həqiqəti reallığa çevirdi, dünya erməniliyinə qalib gələrək tarixi missiyasını yerinə yetirdi.

### Qələbəyə aparan siyasətin təntənəsi

44 günlük Vətən müharibəsi Prezident İlham Əliyevin böyük qələbəyə aparan siyasətinin təntənəsinə çevrildi. Bu Zəfər bir daha İlham Əliyevin müdrikliyini, qətiyyətini, vətərpərvərliyini dünyaya nümayiş etdirdi, dövlətinin və xalqının milli maraqları üçün mübarizəsinin məntiqi yekunu oldu. Bu Qələbə Heydər Əliyev siyasi yolunun uğuru kimi tariximizə yazıldı. Vətən müharibəsindəki Zəfərlə Azərbaycan xalqı ədalətsiz beynəlxalq münasibətlər sistemində öz milli haqqına çatmağın ən mükəmməl nümunəsini yaratdı.

Prezident İlham Əliyevin Şuşada Cıdır düzündən bəyan etdiyi kimi, bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq: "Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu".

Bu gün işğaldan azad edilmiş bütün ərazilərimiz bərpa olunur, onlara yeni həyat verilir. Cəmi bir il ərzində Qarabağda görülən işlərin miqyası olduqca əhatəlidir. Böyük qayıdış üçün, ilk növbədə, yeni yollar çəkilir, enerji ilə təminat gücləndirilir. Artıq bir neçə şəhərin baş planı da təsdiq olunub, yaşayış məhəllələrinin, inzibati binaların təməli qoyulub. Cəmi bir neçə aya "Zəfər yolu" çəkildi, Füzulidə Beynəlxalq Hava Limanının inşası başa çatıb. Beləliklə, işğaldan azad edilmiş torpaqlarımızda möhtəşəm quruculuğun ən gözəl nümunələri yaradılmaqdadır.

### 50 yaşında məcburi köçkünlərlə, 60 yaşında Şuşada…

Qarabağın mirvarisi Şuşa şəhəri sürətlə bərpa olunur. Şuşa Azərbaycanın tarixidir, xalqımızın maddi-mənəvi abidəsidir. Şuşanın hər binasında, hər küçəsində, hər daşında xalqımızın keçmişi, adət-ənənələri yaşayır. Ona görə düşmən 28 illik işğal dövründə Şuşanın erməniləşdirilməsinə çalışsa da, buna nail ola bilmədi. Çünki Şuşa düşmənə boyun əymədi, onun saxta və özgə mədəniyyətlərə qucaq açması mümkün deyildi.

Şuşanı işğal edənlər 28 il onu sadəcə dağıdıblar. Şəhərin tarixini saxtalaşdıra bilmədikləri üçün ona böyük ziyan vurublar. Qəhrəman hərbçilərimizin azad etdikləri Şuşa indi sağalır, sürətlə keçmiş şöhrətini bərpa edir. Şəhərin bərpası Prezident İlham Əliyevin xüsusi nəzarətindədir. Dövlət başçısının il ərzində 7 dəfə Şuşaya səfər etməsi də bunu təsdiqləyir.

Prezident İlham Əliyevin 60 illik yubileyini Şuşada qarşılaması isə mənəvi hadisədir. 50 illik yubileyini məcburi köçkünlərlə qeyd edən Azərbaycan Prezidenti 60 illik yubileyini Şuşada qarşıladı. Aralarında canlı bağlantı olan bu iki tarix İlham Əliyevin rəhbərliyi ilə gedilən möhtəşəm yüksəliş yolunun təntənəsinin təcəssümüdür. Azərbaycanın inkişafını və torpaqlarımızın işğaldan azad olunmasını təmin edən yol bundan sonra da dövlətimizə və xalqımıza yeni nailiyyətlər gətirəcək.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***



# Ombudsman Səbinə Əliyeva ombudsman haqqında Konstitusiya qanununun qəbulunun 20-ci ildönümü ilə əlaqədar müraciət yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbul edilməsinin 20-ci ildönümü ilə əlaqədar müraciət yayıb. AZƏRTAC Ombudsman Aparatının Mətbuat xidmətinə istinadla müraciəti təqdim edir:



"Dekabrın 28-i "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbul edilməsindən 20 il ötür. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 28 dekabr 2001-ci il tarixdə qəbul edilmiş Konstitusiya Qanununa əsasən ombudsman vəzifəsi Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və həmin Konstitusiya qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması məqsədilə təsis edilmişdir.

Təqdirəlayiq haldır ki, əsası Ümummilli Lider tərəfindən qoyulmuş ombudsman təsisatının fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin insan hüquqlarının təmini sahəsində uğurla həyata keçirdiyi islahatlar nəticəsində daha da inkişaf etdirilir.

Ötən dövr ərzində insan hüquqlarının səmərəli müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edən ictimai münasibətlərin tənzimlənməsi zərurəti ilə əlaqədar Konstitusiya qanununda bir sıra əlavə və dəyişikliklər edilməklə ombudsman təsisatına müasir dövrün tələblərinə uyğun yeni səlahiyyətlər də verilmişdir. Hazırda ölkəmizin insan hüquqları sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə uyğun olaraq Konstitusiya qanununun təkmilləşdirilməsi prosesi davam etdirilməkdədir.

Azərbaycan ombudsmanı olaraq, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində qarşıya qoyulmuş olduqca şərəfli və məsuliyyətli vəzifələrin icrasına nail olmağa çalışmaqla xalqımıza sədaqətlə xidmət etməkdən böyük qürur hissi keçirir və hər kəsi dövlətimizin ali məqsədi olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi naminə birgə əməkdaşlığa çağırıram".

# Komando hərbi hissəsində taktiki-xüsusi təlimlər keçirilib

Döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissəsində taktiki-xüsusi təlimlər keçirilib.







Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin planına uyğun olaraq əldə edilən kəşfiyyat məlumatına əsasən şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyənləşdirilib. Diversiya qrupunun təxribatının qarşısını almaq məqsədilə "Həyəcan" siqnalı ilə qaldırılan komandolar daimi dislokasiya məntəqəsini tərk etməklə əməliyyat rayonu istiqamətində hərəkət ediblər.

Sərt iqlim şəraitində və kəskin relyefli ərazilərdə müxtəlif yerdəyişmə üsulları icra olunub. Hərəkət zamanı şərti düşmənin təxribat-diversiya qrupu tərəfindən pusquya düşən komandolar çevik qərar qəbul edərək pusqunu dəf etmə və ərazidə kəşfiyyat aparma qaydalarını məşq ediblər.

Təlimin əsas məqsədi şəxsi heyətin gündüz və gecə məhdud görmə şəraitində taktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də Əməliyyat (Komando) bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsidir. Komandolar təlimdə yüksək peşəkarlıq nümayiş etdirərək bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.



# Mükəmməl nümunə

## İlham Əliyevin yaratdığı "ASAN" brendi ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər edib









Əvvəli 1-ci səh.

Prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və rahatlıq olan "ASAN xidmət" sisteminin yaradılması da bu islahatların real nümunəsidir.

### 9 ildə 21 "ASAN xidmət" mərkəzi yaradılıb

"ASAN xidmət" dünyada ən təkmil örnək kimi qəbul edilən Azərbaycan modelidir. İctimai xidmətlər sahəsində "ASAN xidmət"in xətti ilə aparılan islahatlar nəinki bu sahəni nümunəvi sahəyə çevirib, eyni zamanda cəmiyyətdəki münasibətlərə də çox müsbət təsir göstərib.

Dövlət başçısının 2012-ci il 13 iyul tarixli 685 nömrəli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılsa da, qurum həmin ilin 29 dekabr tarixdən fəaliyyətə başlayıb. Fəaliyyətinin 5 illiyində - 2017-ci ildə Prezident İlham Əliyev "ASAN xidmət"lə bağlı tarixi sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycanda ilk "ASAN xidmət" mərkəzi 2012-ci il dekabrın 29-da fəaliyyətə başladığı üçün hər il bu tarix "ASAN xidmət" işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

Hazırda ölkəmizdə 21 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 6-sı Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə fəaliyyət göstərir.

Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

### Bir mərkəzdə 320-dən çox xidmət göstərilir

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət göstərilir.

"ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət mövcuddur.

Bu günədək "ASAN xidmət" mərkəzlərinə 7 milyon 666 mindən çox vətəndaşın 49 milyondan çox müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Sirr deyil ki, İlham Əliyevin müəllifi olduğu "ASAN xidmət"in yaradılması ictimai xidmətlər sahəsində inqilabi dəyişiklik sayılır. Eyni zamanda bu, yeni davranış qaydalarının tətbiq edilməsi deməkdir.

10 səyyar "ASAN xidmət" avtobusu və 1 səyyar "ASAN qatar" vasitəsilə regionlarda vətəndaşlara səyyar formada xidmətlər göstərilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 500 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

### Könüllülər "ASAN" konsepsiyanın bir komponentidir

Prezident İlham Əliyevin söylədiyi kimi, "ASAN xidmət" mərkəzləri həm də gənclər mərkəzidir. Artıq demək olar ki, minlərlə gənc "ASAN xidmət"də çalışıb, təcrübə qazanıb. Könüllülər hərəkatı da məhz "ASAN xidmət" mərkəzlərindən başlayıb.

Könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidirlər. Bu prosesə 28000-dən çox könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 3000-dən çox təlim, 700-dən çox layihə həyata keçirilib və 2700-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

Ümumiyyətlə, bu sahədə könüllülərin fəaliyyəti cəmiyyətdə yeni bir davranış qaydalarının tətbiqi deməkdir. Prezidentin söylədiyi kimi, bu, çox nəcib və doğrudan da, çox təqdirəlayiq bir funksiyadır.

### 15-dən çox ölkə və beynəlxalq təşkilatla müqavilə imzalanıb

Dövlət agentliyi və tabeliyində olan qurumlar öz fəaliyyəti çərçivəsində 15-dən çox ölkə və beynəlxalq təşkilatla müqavilə bağlayıb.

Bu çərçivədə İtaliya, Fransa, Böyük Britaniya, Türkiyə, Monteneqro, Estoniya, Koreya, İndoneziya, Mərakeş, Özbəkistan, Uqanda, Əfqanıstan və s. kimi ölkələrin müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumları ilə anlaşma memorandumları imzalanıb. Eyni zamanda UCLG Afrika və ICESCO təşkilatları ilə anlaşma memorandumları imzalanıb. ICESCO ilə imzalanmış memorandumun implementasiyası çərçivəsində 25 oktyabr 2018-ci il tarixdə dövlət agentliyi ilə ICESCO arasında birgə əməkdaşlıq proqramı imzalanıb. Əməkdaşlıq proqramına əsasən qabaqcıl idarəetmə üzrə "ASAN ICESCO" mükafatı təsis olunub.

2019-cu il 2 yanvar tarixdə Əfqanıstanda ilk "ASAN xidmət" mərkəzinin açılışı baş tutub. İndoneziya, Monteneqro, Özbəkistan, Türkmənistan, Əfqanıstanın, Rusiya Federasiyasının bir sıra əyalətlərində müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumların nümayəndələrinə dövlət agentliyinin ekspertləri tərəfindən təlimlər keçirilib.

Həmçinin bir neçə ölkədən "ASAN xidmət" təcrübəsinin öyrənilməsi və öz ölkələrində tətbiqi ilə əlaqədar müraciətlər daxil olub. Hazırda bu istiqamətdə danışıqlar davam etdirilir.

Göründüyü kimi, milli brendimiz olan "ASAN xidmət" fəaliyyətini getdikcə daha da şaxələndirir.

Bu gün "ASAN xidmət"də çalışan hər bir şəxs öz işi ilə həm vətəndaş məmnunluğunun daha da yüksəlməsi, həm də Azərbaycanın beynəlxalq nüfuzunun, siyasi çəkisinin artması üçün operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik prinsiplərinə sadiqlik nümayiş etdirir. Xalqa xidmət missiyasını uğurla reallaşdıran "ASAN"çılara bu işdə uğurlar və yeni-yeni nailiyyətlər arzulayırıq.

Peşə bayramınız mübarək!

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Rəqəmsal mühitin hüquqi tənzimlənməsi sisteminə dəyərli töhfə

**Müasir dövrün simasını müəyyən edən səciyyəvi cəhətlərdən biri informasiya cəmiyyətinin formalaşması və rəqəmsal münasibətlərin inkişafıdır. Sivil bazar münasibətlərinin təşəkkülü get-gedə informasiya münasibətlərinin xarakterindən daha çox asılı olur.**

Rəqəmsallaşmanın iqtisadi səmərəlilikdə rolu artır, genişlənən rəqəmsal fəaliyyət məkanı taleyüklü problemlərin poliqonuna çevrilir. Bu baxımdan informasiya münasibətlərinin inkişafının hüquqi tənzimlənməsi sahəsində səmərəli və məhsuldar tədqiqatçı, hüquq elmləri doktoru Rəşad Əzizovun "İnternet-məkanda hüquqi tənzimləmə: tarix, nəzəriyyə, komparativizm" adlı çapdan çıxmış monoqrafiyası təqdirəlayiq hadisə hesab edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun monoqrafiyaya yazdığı ön söz rəqəmsal idarəetmənin perspektivlərinə və əsərin rəqəmsal idarəetməyə verəcəyi töhfəyə dair mühüm elmi-nəzəri fikirləri ilə diqqəti cəlb edir.

Rəqəmsallaşma idarəetmənin bütün səviyyələrdə yeni keyfiyyət səviyyəsinə qaldırılması üçün indiyə qədər misli görünməmiş yeni imkanlar açır. Əsərdə haqlı olaraq qeyd edilir ki, dinamik inkişaf edən milli iqtisadiyyata adekvat rəqəmsal mühitin formalaşdırılması və inkişafı məqsədilə Azərbaycanda strateji əhəmiyyətli və konseptual əsasları müəyyən edən bir neçə vacib sənəd, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair strateji yol xəritəsi hazırlanmışdır. Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2019-cu il tarixli sərəncamı və digər normativ aktların qəbulu işlərin yeni keyfiyyət səviyyəsinə qaldırılması üçün etibarlı hüquqi zəmin yaratmışdır. Müəllif haqlı olaraq bu sənədlər sırasına həmçinin dördüncü sənaye inqilabında ölkəmizin mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr arasında yer almasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs" yaradılmasını vacib bir hadisə kimi qiymətləndirir.

Rəqəmsal münasibətlərin tənzimlənməsinin hüquqi bazasının inkişafı baxımından Azərbaycan Respublikası Prezidentinin ölkədə müasir telekommunikasiya və rəqəmsal arxitektura quruculuğunun idarə olunması, eləcə də müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişaf etdirilməsi sahəsində işlərin effektiv əlaqələndirilməsi məqsədilə imzaladığı "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 27 aprel 2021-ci il tarixli fərmanı ötən illərdə bu sahədə aparılan uğurlu islahatların məntiqi davamı olmuşdur.

Hazırda internet informasiya məkanında baş verən proseslər, onların insan həyatının bütün cəhətlərinə artan təsiri tənzimləməni, xüsusilə hüquqi tənzimləmə məsələlərini aktuallaşdırır. İnsanlar üçün dinamik və çevik bilik mənbələrindən birinə, bəzən hətta birincisinə çevrilmiş, ünsiyyət qurmaq, işgüzar fəallığı təmin etmək, dövlət idarəçiliyində iştirak baxımından əvəzedilməz məkan kimi internetin rolu artmaqda, arealı genişlənməkdədir.

Artıq internet-məkandakı fəaliyyətlərin tənzimlənməsinə yeni baxışın formalaşdırılması, hüquqi tənzimləmənin predmetinin və mexanizmlərinin yenidən qiymətləndirilməsi gündəliyə çıxır. Bu sahədə nəzəriyyəni qabaqlayan təcrübi dəyişikliklər hüquqi bazanın möhkəmləndirilməsində operativ reaksiyaları zəruri edir. Milli internet seqmentində dövlətin tənzimləmə imkanlarının hüdudları və imkanlarının qiymətləndirilməsi özü belə mürəkkəb işdir. Virtual məkanda sərhəd anlayışının yeni çalarlar kəsb etməsi milli qanunvericiliyin və beynəlxalq təcrübənin əlaqələndirilməsini xeyli dərəcədə çətinləşdirir. Hazırda müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar internetin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, müvafiq yeni mexanizmlərin hazırlanması istiqamətində fəal iş aparırlar. Bu zaman internetin tənzimlənməsinin aktual problemləri kimi haqqında danışılan məkanda yurisdiksiyanın müəyyən edilməsi, fərdi məlumatların saxlanması və mühafizəsi, domen adları sisteminin idarə edilməsi, habelə provayderlərin hüquqi məsuliyyətinin müəyyən edilməsi məsələləri ön plana çəkilir. Əlbəttə, rəqəmsal mühitdə fəaliyyətin kiber təhlükəsizliyinin təmin edilməsi, kibercinayətkarlıqla səmərəli mübarizə xüsusi diqqət mərkəzində olmalıdır.

Hüquq elmləri doktoru Rəşad Əzizovun monoqrafiyasının "İnternet-məkanda hüquqi tənzimləmənin nəzəri hüquqi problemləri" adlı birinci fəslində müasir informasiya cəmiyyəti internet-məkanın məzmun konteksti kimi nəzərdən keçirilmiş, internet-məkan anlayışına aydınlıq gətirilmiş, bu məkanın əhəmiyyətini şərtləndirən amillər xarakterizə olunmuşdur. Müəllif bu fəsildə həmçinin internet-məkanın hüquqi problemlərini dəqiqləşdirmiş, həmin məkanda hüquqi tənzimləmənin mövcud modellərini şərh etmişdir. Daha sonra internet-məkan sosial tənzimləmə sahəsi kimi nəzərdən keçirilmiş, fəslin sonunda internet-məkanda hüquqi tənzimləmənin təhlilinin sistemli metodoloji elementləri ümumiləşdirilmişdir.




Bir sözlə, uzunmüddətli və sistemli tədqiqatların məhsulu olan monoqrafiyada hər şeydən əvvəl internet informasiya məkanında hüquqi tənzimləmənin xüsusiyyətləri aşkar edilmişdir. Bu zaman araşdırılan problemlərin tarixi-nəzəri və müqayisəli-hüquqi aspektləri önə çəkilmişdir. Belə ki, "İnternet-məkanda hüquqi tənzimləmənin tarixi-hüquqi təhlili" adlı ikinci fəsildə ilk növbədə internetin formalaşması və inkişafı tarixi nəzərdən keçirilmiş, müşahidə edilən meyillərə müəllif mövqeyi bildirilmişdir. Müəllif sinxron və diaxron təhlilin müqayisəli-hüquqi metodlarını tətbiq etməklə, ilkin yanaşmada internet-məkanın hüquqi diasinxronizminin yeni elmi konsepsiyası elementlərini əsaslandırır.

İnternet-məkanda hüquqi tənzimləmənin müqayisəli-hüquqi təhlili məsələlərinə həsr olunmuş üçüncü fəsildə sinxron müqayisəli-hüquqi tədqiqatda internet-məkanda hüquqi tənzimləmənin mahiyyət və məzmununun sistemli təhlilinin metodoloji tətbiq prinsipləri, müəllif mövqeyi bildirilməklə, kifayət qədər ətraflı açıqlanmışdır. Müəllifə görə, internet şəbəkəsində münasibətlərin hüquqi tənzimlənməsi sahəsində beynəlxalq əməkdaşlığın inkişafı perspektivlərini nəzərə alaraq, müvafiq dünya praktikasının "xəritəsini çəkmək üçün" ayrıca götürülmüş hüquq sistemində tənzimləmənin ümumiləşdirilmiş mənzərəsini formalaşdırmaq imkanı vardır. Həmin prinsiplərin sinxron aspektdə məcmusu hüquq sistemlərini bir-biri ilə müqayisə etməyə və ümumi nəzəri nəticələr çıxarmağa imkan yaradır. Fikrini inkişaf etdirərək, müəllif tədqiqat kontekstində anqlosakson, roman-german hüquq ailələrinə aid olan sistemlərin ən reprezentativ nümunələrini səciyyələndirir, Çin Xalq Respublikasının və Rusiya Federasiyasının müvafiq hüquq sisteminə xüsusi yer ayırır. Burada müvafiq dünya təcrübəsi təhlil edilməklə, ayrı-ayrı ölkələrin qanunvericiliyinin səmərəli approksimasiya və unifikasiya üsulları şərh olunur. Müəllif internetin hüquqi tənzimlənməsi sahəsində mövcud olan problemləri üç əsas istiqamət - istifadəçilərin eyniləşdirilməsi, informasiya vasitəçilərinin məsuliyyəti və yurisdiksiyanın müəyyənləşdirilməsi vektoru üzrə ümumiləşdirilməsini məqsədəuyğun hesab etmişdir.

Azərbaycanın internet məkanında hüquqi tənzimləmə məsələlərinə xüsusi yarımfəsil həsr olunmuş, internetin milli seqmentində hüquqi tənzimləmə məsələlərinin həlli ilə bağlı elmi əsaslandırılmış təklif və tövsiyələr irəli sürülmüşdür. Azərbaycanda informasiya texnologiyaları və internetin sürətli inkişafı qeyd edilməklə, internet üzərindən fəaliyyətin arealının genişlənməsini şərtləndirən amillər səciyyələndirilmişdir. Bu baxımdan ölkəmizdə informasiya cəmiyyəti quruculuğunun əsas istiqamətləri müəyyən olunduğu Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın roluna xüsusi diqqət verilmişdir. Bu strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın reallaşdırılması prosesi təhlil edilmişdir.

Şəbəkə iqtisadiyyatında informasiya təhlükəsizliyinin, xüsusilə kibertəhlükəsizliyin təmin edilməsi həlledici əhəmiyyətə malik vəzifədir. İnternet-məkanda inkişaf hər mərhələdə kibertəhlükəsizliyin təmin olunması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini tələb edir. Bu baxımdan Azərbaycana daxil olan internet trafikində qlobal kiberhücumların qarşısının alınması, rəqəmsal proseslərin mühafizəsi, informasiya ehtiyatlarının və sistemlərinin mümkün təhdidlərdən qorunması istiqamətində görülən tədbirlər dəyərləndirilmişdir.

Monoqrafiyada dini və ənənəvi hüquq ailələrinə daxil olan ölkələrin internet məkanında hüquqi tənzimləmə sistemlərinə münasibət maraqlı və kifayət qədər orijinaldır. Müəllif haqlı olaraq göstərir ki, dini və ənənəvi hüquq ailələrinə daxil olan ölkələrin internet məkanında hüquqi tənzimləməyə münasibətin ən reprezentativ nümunəsi islam hüququ ola bilər.

İnternet-məkanda hüquqi tənzimləmənin təhlilinə dair sistemli metodologiyadan istifadənin nəticələrinə həsr olunmuş dördüncü fəsildə, əvvəlcə haqqında danışılan metodologiyaya əsaslanan nəzəri nəticələr əsaslandırılır, daha sonra isə onların praktiki əhəmiyyəti açıqlanır. Fəslin sonunda internet-məkanda hüquqi tənzimləmə problemləri qismində həmin məkanda axtarış mexanizmlərinin tənzimlənməsi, fərdi məlumatların qorunması və intellektual hüquqların müdafiəsi problemlərinə xüsusi münasibətin zəruriliyi vurğulanır.

Monoqrafiyanın sonunda əldə edilmiş elmi-nəzəri əhəmiyyətli nəticələr xülasə edilir. İnternet-məkanda yaranan ictimai münasibətləri hüquqi tənzimləmənin keyfiyyətcə yeni obyekti hesab edən müəllifin həmin obyektə münasibətdə əsaslandırdığı müddəalar, əldə etdiyi nəticələr, irəli sürdüyü təkliflərdən istifadə etməklə ciddi praktiki fayda əldə etmək mümkündür.

Gənc alim Rəşad Əzizov haqlı olaraq hesab edir ki, rəqəmsal tənzimləmənin əsas vəzifələrindən biri internetin keyfiyyətinin yüksəldilməsi, auditoriya iştirakçıları arasında sağlam münasibətlərin formalaşdırılmasıdır. Bu baxımdan bir çox məsələlər hüquqi tənzimləmənin predmetidir. Rəqəmsal bazar iştirakçıları arasında münasibətlərin sağlam rəqabət əsasında qurulması üçün hüquqi tənzimləmənin artan rolu nəzərə alınmalıdır. Məhz rəqəmsal bazarın oyunçuları, o cümlədən provayderlər arasında sağlam rəqabətin olması, internetin keyfiyyətinə, sürətinə, istifadəçi sayına və xidmətlərin səviyyəsinə müsbət təsir göstərə bilir. Etiraf etmək lazımdır ki, internetin keyfiyyəti arzuolunan səviyyədə deyildir. Belə vəziyyət xeyli dərəcədə bazarın hələ də zəruri dərəcədə liberallaşmaması, oyunçuların birmənalı şəkildə müəyyən edilməməsi ilə əlaqədardır. Bu baxımdan onlayn kontentlərin tənzimlənməsinin hüquqi bazasının möhkəmləndirilməsi məsələsi də gündəlikdə olmalıdır.

Rəqəmsal infrastrukturun inkişaf səviyyəsi rəqəmsal mühitdə səmərəliliyi şərtləndirən mühüm amildir. Məhz inkişaf etmiş və yaxın perspektivin tələblərini nəzərə almağa imkan verən infrastruktur rəqəmsal mühitin üstünlüklərini reallaşdırmağa imkan verə bilir. İnternetin çoxsəviyyəli tənzimlənməsi infrastruktur təminatı, onlayn-servislərin vəziyyəti ilə bağlıdır. Haqqında danışılan qlobal şəbəkədə böyük platformaların formalaşması, maliyyə texnologiyalarından, onlayn ödənişlərdən, blokçeyn texnologiyalarının təbiqindən gözlənilən səmərənin əldə edilməsi infrastrukturun inkişafında çoxvariantlı yanaşmaların müqayisəli təhlilinə əsaslanan hüquqi tənzimləmədən asılıdır. Həmin imkanların reallaşdırılması isə mükəmməl tənzimləmə mexanizminin yaradılması və adekvat hüquqi təminat sayəsində mümkündür. Bu və digər məsələlərin həllinə dair müəllifin mövqeyi kifayət qədər əsaslı olub, mühüm elmi və təcrübi əhəmiyyətə malikdir. Qeyd etmək olar ki, bu monoqrafiya rəqəmsal hüquq üzrə ixtisaslaşan tədqiqatçının artıq altıncı elmi əsəridir.

Rəşad Əzizovun "İnternet-məkanda hüquqi tənzimləmə: tarix, nəzəriyyə, komparativizm" adlı monoqrafiyası rəqəmsal mühitin hüquqi tənzimlənməsi sisteminə dəyərli töhfədir. Əsər sahənin tədqiqatçıları, mütəxəssislər və ümumilikdə zəruri hazırlıq səviyyəsinə malik oxucular üçün maraqlı və faydalı olacaqdır.

***Ziyad SƏMƏDZADƏ,***
***akademik,***
***Kamil SƏLİMOV,***
***hüquq elmləri doktoru, professor,***
***Rəsul BALAYEV,***
***iqtisad elmləri doktoru, professor***

# 728 nəfərin Rusiyadan quru yolla Azərbaycana gətirilməsi təmin edilib

Mövcud COVID-19 pandemiyası rejimi ilə əlaqədar ölkə üzrə vətəndaşların quru sərhəd keçidinə tətbiq edilən müvəqqəti məhdudiyyətlər səbəbindən Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə dövlət sərhədinin Dağıstan Respublikası ərazisindən yerüstü sərhəd yolu ilə Azərbaycana gəlmək üçün toplaşan vətəndaşlarımız və soydaşlarımızın Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq tapşırığına və pandemiya şərtlərinə uyğun olaraq 2021-ci ilin 20-27 dekabr tarixlərində növbəti sərhəd buraxılışları təşkil edilib.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, sərhəd buraxılışlarının həyata keçirilməsi üçün Xarici İşlər, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət işçi heyət Rusiya Federasiyasının Dağıstan Respublikasında xidməti ezamiyyətdə olublar. İşçi heyətin üzvləri sərhədi keçmək üçün gözləyən 766 nəfər həmvətənlimizi qeydiyyata alıb, onlara zəruri konsulluq yardımını göstərib.

Rusiyanın yerli qurumları ilə əlaqələndirilmiş fəaliyyət nəticəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən edilmiş gündəlik kvotaya uyğun qeydiyyata alınmış 766 nəfərdən 728 şəxsin 2021-ci ilin 22-27 dekabr tarixlərində (6 sərhəd buraxılışı) Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının "Yaraq Qazmalar - Samur" dövlət sərhəd-keçid buraxılış məntəqəsindən Azərbaycan Respublikasına qrup halında keçidi təmin olunub.

Ümumilikdə 2021-ci il yanvarın 29-dan dekabrın 27-dək qrup halında 35 sərhəd keçidi olmaqla 4217 həmvətənlimizin təxliyəsi təmin edilib.

Son illər respublikamızda bir-birinin ardınca müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi onun inkişafının göstəricilərindəndir. Azərbaycanın müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair sanballı tədbirlərə evsahibliyi etməsi artıq ənənəyə çevrilib. Əlbəttə, bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları var. İlk növbədə ona görə ki, ölkəmizdə dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, müxtəlif xalqların nümayəndələri əsrlər boyu bir ailə kimi yaşayırlar. Dövlət başçısı İlham Əliyevin xüsusi qeyd etdiyi kimi, ölkədə milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması faktdır. Bu isə Azərbaycan xalqının güc mənbəyidir: "Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir..."




# Azərbaycan müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan kimi də tanınır

Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq təşəbbüslərə göstərdiyi dəstək nəticəsində ölkəmiz dünyanın mədəniyyət mərkəzinə çevrilib. 2008-ci il dekabrın 2-3-də Avropa Şurasına üzv dövlətlərin Bakıda keçirilən Mədəniyyət Nazirlərinin Konfransında dövlət başçısı İlham Əliyevin çıxışında irəli sürdüyü təklif və tövsiyələr tədbirin beynəlxalq əhəmiyyətini bir daha artırdı: "...Mən çox istərdim ki, bu gün əsası qoyulan "Bakı prosesi" uzunmüddətli olsun. Bu konfransın keçirilməsindən sonra konkret mexanizmlər işlənilsin, fəaliyyət planı hazırlansın. Belə tədbirlərin keçirilməsi həm Bakıda, həm də digər şəhərlərdə ənənəyə çevrilsin..."

Avropa Şurasının ozamankı Baş katibi Terri Devis isə konfransın keçirilməsinin bütün Avropa üçün əlamətdar hadisə olduğunu bildirdi: "Bakı öz tarixi ilə müxtəlif mədəniyyətlərin qovşağında yerləşir və Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpüdür".

Konfransın keçirilməsinin məqsədi ölkəmizin Avropa Şurasına və ICESCO-ya üzv yeganə dövlət olmaq imkanından bəhrələnərək, Avropa ilə islam dünyası arasında mədəniyyət körpüsü - vasitəçi rolunu oynamaq idi. Bu, həm də fərqli mədəniyyətlər arasında dialoqun inkişafına xidmət edən "Bakı prosesi"nin əsasını qoymaq və həmin fəaliyyətlərin mərkəzində duran Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirmək demək idi.

Konfransdan sonra, yəni 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı mədəniyyət nazirlərinin toplantısı da keçirildi. Avropa Şurası dövlətlərinin mədəniyyət nazirlərinin də iştirak etdiyi həmin tədbirdə dinlərarası barışığa, harmoniyaya, sivilizasiyalararası dialoqa dəstək siyasəti geniş müzakirə edildi. Dünya şahid oldu ki, müsəlman aləminin bir parçası olan Azərbaycan hətta inkişaf etmiş Avropaya multikulturalizm nümunəsi göstərmək imkanına malikdir. Eyni zamanda bunu təkcə sözdə deyil, həm də əməli işdə təsdiq edir.

Azərbaycanın həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudlarından çıxararaq, daha qlobal səviyyəyə yüksəltməyə imkan verdi. Bu baxımdan "Mədəniyyətlərarası dialoqa dair Bakı Prosesi"nin davamı kimi, Prezident İlham Əliyevin dəstəyi ilə 2011-ci ilin aprelində Azərbaycan paytaxtında "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu"nun keçirilməsi təşəbbüsü irəli sürüldü. Dövlət başçısı 2011-ci il mayın 27-də xarici tərəfdaşların və tədbir iştirakçılarının müraciətləri, ölkəmizin bu sahədə davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə forumun hər iki ildənbir keçirilməsi ilə əlaqədar fərman imzaladı. Fərmana uyğun olaraq, dövlət başçısının himayəsi və iştirakı ilə "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" şüarı altında 2013-cü ilin mayında Bakıda İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Forumun əsas tərəfdaşları qismində yenə də UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ICESCO, BMT-nin Dünya Turizm Təşkilatı kimi tanınmış beynəlxalq qurumlar çıxış etdilər.

Azərbaycan bu gün dünyada tolerantlıq mərkəzi kimi tanınır. 2014-cü il oktyabrın 2-də Heydər Əliyev Mərkəzində keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumu da bunu təsdiqlədi.

Dünyada etimadsızlıq mühitinin formalaşdığı bir zamanda Azərbaycan tolerantlıq nümunəsi göstərir, multikulturalizmi bir həyat normasına çevirir. Müxtəlif din və mədəniyyətlərin daşıyıcıları ölkəmizdə qarşılıqlı anlaşma əsasında, bir-birinə hörmət etməklə yaşayırlar. Bu, müxtəlif mədəniyyətlərin qovuşmasının deyil, həm də toqquşmasının arzusunda olanlar üçün ciddi nümunədir. Dövlət başçısının IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi, multikulturalizmin müasir dünyada alternativi yoxdur: "...Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

2015-ci il mayın 18-19-da "Bakı prosesi" çərçivəsində Azərbaycan paytaxtı yenidən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi etdi. Forumda bir daha təsdiq olundu ki, "Bakı prosesi" dövlət başçısının dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışlı, əməkdaşlıq və dialoqu təşviq edən platforma, eləcə də layihələri birləşdirən qlobal xoşməramlı çağırışıdır. Bu həm də dünyada milli, irqi, dini və mədəni ziddiyyətlərin daha da artdığı, ekstremist düşüncə tərzinin genişləndiyi bir dövrdə Azərbaycanın multikultural resurslarının, tarixən malik olduğumuz mehriban birgəyaşayış ənənələrinin beynəlxalq səviyyədə model kimi istifadə olunması deməkdir.

Bir sözlə, "Bakı prosesi" həm multikultural, həm də interkultural beynəlxalq və yerli fəaliyyətlərin davamlı məcmusudur.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı prosesi" təşəbbüsü ötən müddətdə qlobal mahiyyət qazanıb. 2011-ci ildən etibarən iki ildənbir "Bakı prosesi" çərçivəsində beş dəfə Dünya Mədəniyyətlərarası Dialoq, altı dəfə Bakı Beynəlxalq Humanitar, 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna evsahibliyi edib.

## "Bakı prosesi", Ümumdünya Mədəniyyətlərarası Dialoq və Beynəlxalq Humanitar forumlar ölkəmizin multikulturallığını, xalqımızın isə tolerantlığını təsdiqləyən faktorlardandır

2020-ci il aprelin 23-də beynəlxalq təşkilatların yüksəksəviyyəli rəsmiləri, eləcə də tanınmış ekspertlərin iştirakı ilə "Bakı prosesi" beynəlxalq işçi qrupunun virtual görüşü də keçirildi. Azərbaycanın mədəniyyət naziri, BMT Baş katibinin ali nümayəndəsi, ICESCO-nun baş direktoru, UNESCO və digər qurumların nümayəndələrinin də iştirak etdiyi virtual görüş COVID-19 pandemiyası ilə əlaqədar idi.

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq, BMT Sivilizasiyalar Alyansının Qlobal və Bakı Beynəlxalq Humanitar forumlarında 180-dən çox ölkədən və 40-dan artıq beynəlxalq təşkilatdan nümayəndələr təmsil olunub. Bu tədbirlərdə ümumilikdə 20 mindən çox xarici nümayəndə, dövlət və hökumət rəsmiləri, beynəlxalq qurumların rəhbərləri, diplomatlar, mədəniyyət, təhsil və elm xadimləri, qlobal biznes və media strukturlarının təmsilçiləri, gənclər iştirak ediblər.

Onu da qeyd edək ki, "Bakı prosesi" çərçivəsində təşkil olunan forumlarda 250-dən çox tədbir və layihə həyata keçirilib. Təsadüfi deyil ki, BMT-nin Baş katibi 2017-ci, 2018-ci və 2019-cu illərdə BMT Baş Assambleyasına təqdim etdiyi məruzələrində "Bakı prosesi"ni xüsusi vurğulayıb.

Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamafobiya, antisemitizm, radikalizm təzahürlərinin artdığı göz qabağındadır. Eləcə də miqrant böhranının yaşandığı müasir dövrdə Azərbaycanın dövlət başçısı qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında cəm olmağa çağırmaqla həmrəylik, humanizm ideallarının bərqərar olmasına öz töhfəsini verir. Dini-mədəni dəyərlərə savaş açıldığı narahat dünyamıza Azərbaycan öz nadir təcrübəsini - multikulturalizm modelini təklif edir.

Beləliklə, bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, dünya dini liderlərinin sammitlərinə evsahibliyi, qlobal hərəkata çevrilmiş "Bakı prosesi"nə rəhbərlik edir. Prezident İlham Əliyevin dövlət-din siyasəti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında siyasi-mədəni sahədə dəyərli fəaliyyəti diqqəti özünə çəkməkdədir. Çünki bu gün Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin milli birlik, mənəvi vəhdət, dini-mədəni müxtəlifliyin, mədəniyyətlərarası və dinlərarası harmoniyanın unikal nümunəsidir. Bu istiqamətdə Azərbaycanda keçirilən tədbirlər ölkəmizin mövqeyini daha da artırır. Azərbaycan dünyada həm də mədəniyyət, tarix, tolerantlıq mərkəzi kimi tanınır. Müxtəlif mədəniyyətlərə hörmət isə xalqımızın mədəniyyətinin bir parçası kimi formalaşaraq həyat tərzinə çevrilir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# İordaniyalı jurnalist Sudah MARUAN: «Ölkəniz də, lideriniz də Şərq dünyasının qürur mənbəyidir»

İordaniyalı jurnalist, akademik Sudah Maruan uzun illərdir Azərbaycan haqqında ərəb mətbuatında çıxış edən, ölkəmizi ərəb dünyasına tanıdan, haqq işimizi yorulmadan müdafiə edən qələm sahiblərindəndir. Onun həyat yoldaşı Yelena Nedoqina da son dövrlər ölkəmizlə bağlı mütəmadi çıxışlar edir.

S.Maruandan xahiş etdik ki, illər boyu haqqımızda yazan şərhçi kimi Yeni il ərəfəsində İordaniyadan Azərbaycana bir nəzər salsın, Uzaq Şərqdən uğurlarımızın sözlə rəsmini cızsın, ən vacib məqamlara toxunsun.



*- Maruan, siz ərəb mətbuatının tanınmış simalarından olmaqla yanaşı, həm də yarım əsrdən artıqdır Azərbaycana bağlısınız, burada çoxlu dostlarınız var. Uzun illər ərəb mətbuatında ölkəmizin təbliği və onun haqq işinin müdafiəsi ilə məşğulsunuz. Bu gün İordaniyadan Azərbaycana nəzər salanda diqqətinizi ən çox hansı məqamlar çəkir?*

- Həqiqətən də mən və həyat yoldaşım Azərbaycan haqqında ən çox yazan jurnalistlərik. Həm İordaniya, həm də ərəb mətbuatında bu mövzuya bizim qədər müraciət edən və Azərbaycanı bizim qədər tanıyan, fikirləşirəm ki, az olar. Artıq Azərbaycan mətbuatı da yazdıqlarımızı diqqətlə izləyir, çıxışlarımız mütəmadi şəkildə AZƏRTAC-ın və digər mətbu orqanların xətti ilə tərcümə edilir və dərc olunur. Ən çox çıxış etdiyim qəzetlərdən biri də sizin rəsmi dövlət qəzeti "Azərbaycan"dır. Bakı Humanitar Forumunda iştirak edərkən redaksiyanızın qonağı olmuşam. Mən həyat yoldaşımla birlikdə fürsətdən istifadə edərək "Azərbaycan" qəzetinə və onun baş redaktoru cənab Bəxtiyar Sadıqova əməkdaşlığa görə minnətdarlığımızı bildiririk. Biz Azərbaycan mətbuatını hər gün izləyirik, əlimizi baş verən hadisələrin nəbzində saxlayırıq. Sizin ölkəyə uzaqdan nəzər salanda diqqəti çəkən ilk məqam iki Qarabağ müharibəsi arasındakı zaman kəsiyində baş verən mühüm yeniliklər - Prezident İlham Əliyevin qazandığı möhtəşəm Qələbə, eləcə də ölkənizdə aparılan islahatlardır.

*- Ən çox bu islahatların hansılarını qeyd edərdiniz?*

- Gəlin birlikdə iki Qarabağ müharibəsini nəzərdən keçirək. Birinci müharibə illərlə uzandı, böyük itkilərlə və Azərbaycan ərazilərinin 20 faizinin işğalı ilə başa çatdı. İkinci müharibə Şərq dünyasının güclü sərkərdəsi İlham Əliyevin rəhbərliyi altında cəmi 44 gün çəkdi və 30 ilə yaxın işğal altında qalmış ərazilər ildırım sürəti ilə düşməndən geri alındı. İlham Əliyevin Azərbaycan xalqı və ordusu ilə birlikdə qazandığı müqəddəs Qələbə bütün Şərqin qürur mənbəyidir.

Biz yarım əsrin dostuyuq. Bilirsən ki, mən müsəlman deyiləm, xristian mənşəli ərəbəm. Amma İlham Əliyevdən söz düşəndə Şərq aləmində dinindən, əqidəsindən asılı olmayaraq hamı onun ağlı, düşüncəsi, cəsarəti, qətiyyəti və uzaqgörənliyi ilə öyünür. Mən Azərbaycanda baş verən bütün yeniliklərin, islahatların və qələbələrin minillik inkişaf yoluna bərabər olduğunu qeyd etmək istəyirəm. Ölkəmizdə hansı sahəni istəyirsinizsə - beynəlxalq münasibətləri, diplomatik əlaqələri, iqtisadi islahatları, ordu quruculuğunu, xalqın döyüş əzmini - götürün və əvvəlki dövrlərlə müqayisə edin, görəcəksiniz ki, yerlə göy qədər fərq var. Bəşər tarixində elə qədim dövlətlər var ki, minillik keçmişi ilə öyünməyə haqları olsa da, məhv olublar, tarixin uçurumlarına yuvarlanıblar. "Ərəb baharı"ndan sonra qan içində boğulan və dünyadan təcrid edilən ərəb dövlətlərini xatırlayın! Siz bu faciələrin girdabına yıxılmadınız, müstəqilliyinizi itirmədiniz, əksinə, İlham Əliyevin sayəsində regionda güc mərkəzinə çevrildiniz, islahatlara və sülhə sədaqətli ölkə kimi inkişaf etdiniz. Bu amillərə görə ölkəniz də, lideriniz də Şərq dünyasının qürur mənbəyidir.

*- Ümumi baxışınıza görə təşəkkür edirəm. Mövzuya bir az ətraflı yanaşa bilərikmi?*

- Bu, çətin deyil. Sadəcə müəyyən müqayisələr aparmaq lazımdır. Məsələn, Birinci və İkinci Qarabağ müharibələri dövründə Ermənistanla Azərbaycanın apardığı informasiya müharibələrini nəzərdən keçirək. Birinci Qarabağ müharibəsində Ermənistan və erməni diasporu istənilən yalanı uydurur və onları istənilən kütləvi informasiya vasitələrində həqiqət kimi tirajlayırdılar. Onlar bütün hərbi əməliyyatlardan əvvəl ilkin olaraq Azərbaycana qarşı informasiya hücumu və dezinformasiyalar təşkil edirdilər. Azərbaycan tərəfi gecikirdi, təqdim etdiyi məlumatlar düz olsa da, ləngiyirdi, inandırıcı təsir bağışlamırdı. Biz Qafqazda nələrin baş verdiyini anlamırdıq. Mövcud vəziyyətlə bağlı ovaxtkı hakimiyyət ermənilərin informasiya müharibəsinin, ideoloji hücumlarının qarşısını almaqda aciz və səriştəsiz idi.

İkinci Qarabağ müharibəsində isə Azərbaycan Prezidenti İlham Əliyev Ali Baş Komandan kimi bir tərəfdən döyüşləri idarə edir, digər tərəfdən dövlət başçısı kimi demək olar ki, hər gün dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə müsahibələr verirdi. O, ən sərt suallara belə soyuqqanlı cavab verir, onu ittiham etməyə, müqəssir çıxarmağa və erməni millətçilərinə haqq qazandırmağa çalışan əcnəbi jurnalistləri asanlıqla məğlub edirdi. İlham Əliyevin hər müsahibəsi bir döyüşə bərabər idi. Sizin Prezidentin milyonlarla baxış yığan müsahibələri var. Onun ingilis dilində verdiyi müsahibələrə orijinalda özüm qulaq asmışam. Azərbaycan əraziləri işğaldan azad edildikcə özü bölgələrə səfər edirdi və yayılan xəbərlərdə, videogörüntülərdə onu hərbi geyimdə "dəmir yumruğ"unu başının üstünə qaldıran görürdük. Bəli, siz qısa müddət ərzində dəyişə, fərqli insanlara çevrilə bildiniz. Necə cəsur və döyüşkən olduğunuzu ortaya qoydunuz. Sizi tanıdılar, sevdilər və Qələbənizin qarşısında baş əydilər.

Artıq işğaldan azad edilmiş ərazilərinizdə yüksək texnologiyalar tətbiq edilir, "ağıllı" kəndlər, şəhərlər salınır, kənd təsərrüfatı qurulur. Müharibədən cəmi bir il keçməsinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyev bu gün həmin ərazilərdə sosial obyektlərin, infrastukturun açılışlarını edir. Belə qısa müddətdə belə uğurları heç kim qazana bilməzdi. Amma siz İlham Əliyevin rəhbərliyi altında bunu bacarırsınız.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Mina təhlükəsizliyi və maarifləndirmədə medianın rolu mövzusunda seminar keçirilib

Düşmən tapdağından azad edilmiş ərazilərimizdə ehtiyatlı davranış məqsədilə müvafiq qurumlar tərəfindən media və cəmiyyətin maarifləndirilməsi üçün bir sıra addımlar atılır. Bu mövzu cəmiyyətə yaxından tanış olmadığından daha dolğun və izahlı təqdimatlara ehtiyac duyulur.

Bu səbəblə təşkil edilən təlimlərdən biri də FHN və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə "Mina təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsində medianın rolu" mövzusunda seminarın keçirilməsi oldu.

Seminarda təlimin əsas məqsədini və mahiyyətini izah edən FHN-nin Xüsusi Riskli Xilasetmə Xidmətinin rəis müavini general-mayor Məhərrəm Həsənov işğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işinin sürətlə getdiyini qeyd edib. O bildirib ki, həyata keçirilən bu işlər olduqca çətin və məsuliyyətli öhdəlik olduğundan bütün qüvvələr səfərbər edilib. 2021-ci ilin yanvar ayından etibarən Ağdam və Füzuli istiqamətlərində bir çox ərazilərin minalardan təmizlənməsinə nail olunub. Bu işə cəlb edilən xüsusi qruplar beynəlxalq sertifikatlı nümayəndələrdir. M.Həsənov həmin ərazilərə səfər edən zaman media işçilərini və vətəndaşları diqqətli olmağa çağırıb.

Xüsusi Riskli Xilasetmə Xidmətinin şöbə rəisi kapitan Süleyman Heydərov isə minatəmizləmə fəaliyyəti ilə bağlı ərazilərdəki ümumi vəziyyət barədə məlumat verib. O, ərazilərdə daim təhlükəsizlik məqsədilə ilkin tibbi yardım maşınının olduğunu, hər hansı arzuolunmaz vəziyyət yarandığı halda dərhal müdaxilə edildiyini bildirib. Daha sonra minalanmış yerlərdə işarələrin müxtəlif rəngli payalarla müəyyən edildiyini, minaların təmizlənməsi zamanı 3 vasitədən (əllə, minaaxtaran itlərlə, mexaniki üsulla) istifadə olunduğunu diqqətə çatdırıb. Onu da bildirib ki, minaların böyük bir qismi əllə təmizlənmə üsulu ilə zərərsizləşdirilir.

Seminarın təşkil edildiyi məkanda FHN-nin əyani təlimlərində istifadə edilən qumbaralar, piyada və tank əleyhinə olan mina nümunələrinin sərgisi də yer alıb. Bu partlayıcı sursatlar haqqında ilkin məlumatlar kapitan Süleyman Heydərov tərəfindən verildikdən sonra əhalinin bilgiləndirilməsi üçün təlimatı Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Gülçin Mehdiyeva səsləndirib: "Burada xüsusilə hər bir vətəndaş üçün diqqət edilməli məqam ərazidəki xəbərdarlıq nişanlarını daim izləyib nəzarətdə saxlamaq və təhlükəsizlik qaydalarına doğru əməl etməkdir. Mina təhlükəsini nəzərə alaraq yalnız dəfələrlə yoxlanılıb təhlükəsizliyi müəyyən edilmiş ərazilərdən istifadə etmək vacibdir. Maneələrin heç bir halda keçilməməsi isə baş verə biləcək hər hansı ehtimalın qarşısını alır. Ərazidə rast gəlinən təhlükəli, şübhəli əşyalara toxunmaq qadağandır. Əgər hər hansı şübhəli hal qeydə alınarsa, dərhal Fövqəladə Hallar Nazirliyinin "112" və ya Daxili İşlər Nazirliyinin "102" qaynar xəttinə məlumat vermək lazımdır. Bu halda ərazidən təhlükəsiz təxliyə həyata keçirilə bilər".

Təlimdə iştirak edən hər bir media nümayəndəsinə sertifikat verilib.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# Pandemiya dünyada Yeni il şənliklərini təxirə salır

*Əvvəli 1-ci səh.*

"İndi bayramı qeyd edib, daha sonra kədərlənməkdənsə, tətili indi ləğv edib, onu daha sonra keçirmək daha yaxşıdır" deyən baş direktor hazırkı şəraitdə bunun normal həyata qayıtmaq üçün ən vacib şərtlərdən biri olması qənaətindədir.

Almaniyanın səhiyyə naziri Karl Lauterbax da Yeni il bayramı ilə əlaqədar COVID-19-a yoluxma hadisələrinin sayında sürətli artım olacağını gözlədiyini söyləyib. Nazir bildirib ki, bəzi Avropa ölkələrindən fərqli olaraq Almaniyada "Omikron"un böyük dalğası müşahidə edilməsə də, Yeni il bayramı ilə əlaqədar yanvarın ilk həftəsində vəziyyət dəyişə bilər.

Amerikalı infeksionist, tədqiqatçı alim Entoni Fauci də Yeni il səyahətləri zamanı hətta tam peyvənd olunmuşlar arasında da "Omikron"a yoluxma hallarının artacağını deyib.

Artıq bir çox dövlətlər "Omikron"un yayılmasının epidemioloji vəziyyəti daha da pisləşdirəcəklərindən ehtiyat etdikləri üçün vətəndaşlarının xaricə səyahətlərini məhdudlaşdırmaqla yanaşı, ölkə daxilində də Yeni il şənliklərinin keçirilməsinə icazə vermirlər. ABŞ-ın Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzləri (CDC) amerikalılara COVID-19-un geniş yayıldığı 80-dən çox ölkəyə, o cümlədən Avropaya səyahət etməməyi tövsiyə edib. Almaniya hökuməti insanları tətil dövründə təmaslarını məhdudlaşdırmağa və peyvənd olunmağa çağırıb.

İngiltərə, Almaniya, Yunanıstan, Fransada Yeni illə əlaqədar kütləvi bayram şənlikləri və ənənəvi atəşfəşanlıqlar keçirilməyəcək. Yunanıstanın səhiyyə naziri Thanos Plevris bələdiyyələrin bu il planlaşdırdığı bütün kütləvi Yeni il şənliklərinin ləğv edildiyini, açıq və qapalı məkanlarda maska taxmağın yenidən məcburi olduğunu açıqlayıb. Fiziki təması minimuma endirmək məqsədilə Almaniya da Yeni il şənliklərini məhdudlaşdırıb. Bu ölkədə insanların yalnız maksimum 10 nəfərdən ibarət qrup halında toplaşmasına icazə verilib. Yeni Zelandiya ən azı gələn il fevralın sonuna qədər beynəlxalq reyslərin açılmasını təxirə salıb. İran "Omikron"a görə sərhədlərini müvəqqəti bağlayıb.

"Omikro"nun ortaya çıxdığı ilk vaxtlardan onun simptomlarının nisbətən yüngül olduğu deyilsə də, bu "yüngül virus"un ölümə səbəb olduğu da üzə çıxıb. Artıq "Omikron"dan ilk ölüm hallarının baş verdiyi rəsmi məlumatlarda öz əksini tapıb. Almaniyanın infeksion xəstəlikləri öyrənən Robert Koç İnstitutu "Omikron" mutasiyasını daşıyan bir xəstənin vəfat etdiyini açıqlayıb. ABŞ-da da "Omikron"dan insan ölümü baş verib. Amerikalı tədqiqatçıların fikrincə, ölüm halları COVID-19 və onun variantlarının şiddətini bir daha xatırladır.

"Omikron"un COVID-19-a qarşı tətbiq edilən mövcud peyvəndlərin effektivliyinə potensial təsirini araşdıran tədqiqatçıların əldə etdikləri nəticələr kifayət qədər geniş deyil. Lakin bu qənaətə gəlinib ki, peyvəndlər hələ də ölüm hallarının, ağır xəstəliklərin baş verməsində azalmaya səbəb ola bilər. ÜST də öz növbəsində ağır xəstəliklərdən və ölümdən qorunma üçün vaksinlərin tətbiqini ən əhəmiyyətli üsul kimi təklif edir. İnsanların iki doza vaksin vurdurması, iki doza peyvənd olunanların isə gücləndirici doza vurdurması pandemiyadan qurtuluş üçün ən əsas yol hesab edilir.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*






# Bakıda Cənubi Qafqazın ən böyük və ən müasir Baytarlıq Klinikası açılıb

## Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib








Dekabrın 28-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Bakının Nizami rayonunda həm ərazisinə, həm də müasir avadanlıqlarla təchizatına görə Cənubi Qafqazda ilk olan Baytarlıq Klinikasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq Elmi-Tədqiqat İnstitutunun nəzdindəki Baytarlıq Klinikası müasir standartlara uyğun inşa olunub.

Tanışlıq zamanı kənd təsərrüfatı naziri İnam Kərimov məlumat verdi ki, institutun ərazisində yerləşən və 1000 kvadratmetr ərazini əhatə edən klinikada ev heyvanları ilə yanaşı, kənd təsərrüfatı heyvanlarının da müayinə-müalicəsi aparılacaq. Cənubi Qafqazda ilk dəfədir ki, belə böyük ərazisi olan, müasir avadanlıqlarla təchiz edilən Baytarlıq Klinikası istifadəyə verilir.

Baytarlıq Klinikasında özəl baytar, feldşer, laborantlardan ibarət 20-yə yaxın əməkdaş çalışacaq. Klinikada qəbul, karantin, stasionar, terapiya, toksikologiya, dermotologiya, oftalmologiya, cərrahiyyə, USM, rentgen, biokimya laboratoriyası, eləcə də ilkin baytarlıq yardımı avtomobili vasitəsilə xidmətlərin göstərilməsi nəzərdə tutulur.

Bildirildi ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən "Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 22 aprel tarixli Fərman imzalanıb. Fərmanın icrası ilə əlaqədar baytarlıq sahəsində institusional dəyişikliklər həyata keçirilir. Belə ki, dövlət sifarişi əsasında baytarlıq xidməti göstərən sahə baytarlıq məntəqələri mütəxəssislərinin gələcək fəaliyyətləri müqavilə əsaslı olmaqla, özəl baytarlıq xidmətinə keçidlə əvəzlənəcək.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva pişik üzərində cərrahiyyə əməliyyatını izlədi.

İkinci səviyyəli Biotəhlükəsizlik Elmi-Tədqiqat Diaqnostik Laboratoriyası, üçüncü səviyyəli Biotəhlükəsizlik Laboratoriyası, diaqnostikum və serum istehsalat şöbəsinin fəaliyyət göstərdiyi, müasir avadanlıqlarla təchiz olunmuş Baytarlıq Klinikasında özəl xidmətə keçən baytarlıq mütəxəssisləri bilik və bacarıqlarını artıra, müalicə-profilaktika sahəsində yeni və müasir biliklərdən yararlana biləcəklər. Bununla yanaşı, Azərbaycan Dövlət Aqrar Universitetinin Baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin gənc kadrlardan ibarət məzunlarının da klinikada öz bilik və bacarıqlarını daha da təkmilləşməsinə şərait yaradılacaq.

Baytarlıq Klinikası ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

# "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib

## Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmə aksiyasında iştirak edib

Dekabrın 28-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Yeni il bayramı ərəfəsinə təsadüf edən tədbir zamanı abadlaşdırılan həyətin kiçik sakinləri üçün xüsusi bayram şənliyi təşkil edilib. Leyla Əliyeva uşaqlarla birgə musiqi sədaları altında yolka ətrafında dövrə vurub, balacalara bayram hədiyyələri təqdim edib, onlarla şəkil çəkdirib. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş bayram əhvali-ruhiyyəsi yaradıb, sevinc dolu anlar bəxş edib.

Yenilənmiş həyət Nizami rayonu, Qara Qarayev prospekti 12, 14, 16, 18, Özbəkistan küçəsi 8, 6, Azər Manafov kücəsi 3, 5, Kamil Balakişiyev küçəsi 8a, 11, 15 ünvanlarında 1400 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol və basketbol, şahmat meydançaları, tennis masası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. İsti günlərdə uşaqların əylənməsi üçün fəvvarə tikilib, 300 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda ərazidə 11 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.








Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 450 ədəd müxtəlif cinsli ağac və kol əkilib, 4 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Sakinlər Səkinə Məmmədova və Zemfira Mehdiyeva həyətlərinin tamamilə dəyişdiyini, bütün yaş qruplarının istirahəti üçün şərait yaradıldığını bildiriblər. "Yeni ilə abad həyətlə keçəcəyimiz üçün sevincliyik. Yenilənmiş həyət sakinlər üçün əsl bayram hədiyyəsi, Leyla Əliyevanın iştirakı isə ikiqat sevinc oldu. Prezident İlham Əliyev və onun ailə üzvləri daim xalqın yanında olur, vətəndaşların qayğıları ilə maraqlanır, onlara çatdırılan problemləri həll edirlər. Dövlət başçısı və ailə üzvlərinə xeyirxah missiyaları uğurla yerinə yetirdiklərinə görə minnətdarlığımızı bildirir, qarşıdan gələn bayramlarını təbrik edirik", - deyə sakinlər qeyd ediblər.

Qeyd edək ki, "Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həmin layihə çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası çağırılıb

Dekabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarını imzalayıb.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, qərarda deyilir:

"Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası 2021-ci il dekabr ayının 29-da saat 11:00-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları;
2. Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinin təsdiq edilməsi;
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin təsdiq edilməsi;
4. İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin təsdiq edilməsi;
5. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi;
6. "Normativ - hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi;
7. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi;
8. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı.

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar."

Qeyd edək ki, sessiyanın keçirilməsi ilə bağlı qərar muxtar respublikanın rəsmi qəzeti olan "Şərq qapısı"nın 28 dekabr tarixli nömrəsində dərc edilib.

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, İşçi qrupa daxil olan aidiyyəti dövlət qurumlarının, eləcə də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının nümayəndələrinin iştirak etdikləri iclasda işğaldan azad olunmuş ərazilərdə nəqliyyat və rabitə infrastrukturunun bərpası məqsədilə cari il ərzində yerinə yetirilən işlər, hazırda icrası davam edən layihələr, o cümlədən dəmir və avtomobil yollarının, hava limanlarının tikintisi üzrə görülən işlər, mövcud tələbata uyğun olaraq telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə layihələrin icra vəziyyəti barədə aidiyyəti qurumlar tərəfindən ətraflı məlumatlar verilib.

İşğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı, dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya prioritetlərinin icrasında nəqliyyat infrastrukturunun xüsusi əhəmiyyəti nəzərə alınaraq, həmin ərazilərdə inşa olunacaq nəqliyyat infrastrukturunun vahid planı barədə iclas iştirakçılarına geniş məlumat verilib və plan ətrafında müzakirələr aparılıb.

İcra edilən layihələrin prioritetliyi müəyyən edilməklə tikinti və bərpa işləri aparılacaq ərazilərin minalardan təmizlənməsi, bölgədə telekommunikasiya şəbəkələrinin qurulması, o cümlədən radio-televiziya yayımının təşkili, rayonlararası magistral fiberoptik xətlərin çəkilməsi, xüsusi rabitə xidmətlərinin təşkili, mobil rabitə xidmətlərinin göstərilməsi və əhatə dairəsinin genişləndirilməsi, tələbata uyğun olaraq daxili rabitə şəbəkələrinin layihələndirilməsi və qurulması məsələləri üzrə müzakirələr aparılıb, layihələrin icrası ilə bağlı təkliflər və aidiyyəti üzrə tapşırıqlar verilib.

Bununla yanaşı, nəqliyyat və rabitə infrastrukturunun bərpası üzrə bütün qurumlar tərəfindən görülən işlərin İşçi qrup vasitəsilə İdarələrarası Mərkəzlə əlaqələndirilməklə icra edilməsinin, eləcə də hazırda icra olunan və planlaşdırılan infrastruktur layihələrinin Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə işlənməsinin və mütəmadi olaraq yenilənməsinin vacibliyi vurğulanıb.

# Bakının bütün rayonları üzrə səyyar sosial reabilitasiya xidmətləri göstərilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən Bakının daha 4 rayonunda (Nəsimi, Xətai, Xəzər və Pirallahı) sağlamlıq imkanları məhdud 6 yaşadək uşaqlara səyyar formada sosial reabilitasiya xidmətlərinə başlanılıb. Beləliklə, indi paytaxtın bütün rayonları üzrə həmin xidmətlər göstərilir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, agentliyin psixoloq, pedaqoq, sosial işçi və loqopedlərdən ibarət mütəxəssislər qrupu həmin uşaqları yaşadıqları evlərdə sistemli şəkildə sosial-psixoloji və sosial-pedaqoji reabilitasiya xidmətləri ilə təmin edir.

Uşaqlarda davranış pozuntuları, əhvalın qeyri-sabitliyi, hiperaktivlik, adaptasiya və həmyaşıdlarla ünsiyyət problemi və s. kimi halların reabilitasiyası aparılır. Bu məqsədlə müxtəlif proqram və terapiyalardan, pedaqoji texnika və pediatrik reabilitasiya üsullarından istifadə olunur. Psixoloji konsultasiyalar, həftədə beş dəfə reabilitasiya seansları, valideynlər üçün maarifləndirici təlim və seminarlar keçirilir.

Xidmətdən faydalanmaq istəyən paytaxt sakinləri Sosial Xidmətlər Agentliyinə və agentliyin yaşadıqları rayonlar üzrə filiallarına müraciət edə bilərlər.

# Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir





Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın cari il martın 16-da işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı Füzuli-Hadrut avtomobil yolunun təməli qoyulub.

Avtomobil yolunun uzunluğu 12 kilometrdir. I texniki dərəcəli bu yol başlanğıcını "Zəfər" yolundan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Füzuli-Hadrut avtomobil yolu 4 hərəkət zolaqlı olacaq. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 21 metr, yolun hərəkət hissəsinin eni isə 14 metr təşkil edəcək.

Hazırda avtomobil yolunda torpaq işləri icra olunur. Xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Artıq ilk 8 kilometr hissədə torpaq işləri və yol yatağının tikintisi 50 faiz icra olunub.

Uzunluğu 12 kilometr olan Füzuli-Hadrut avtomobil yolunda torpaq yatağının inşası ilə yanaşı, yolboyu atmosfer suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik suötürücü boruların, həmçinin dərə sularının ötürülməsi üçün 1 dördbucaqlı su keçidinin tikintisi də layihə üzrə aparılır.

Bundan başqa, yolun 6,7-ci kilometrində - "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində ikiaşırımlı avtomobil körpüsünün inşası nəzərdə tutulub.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yerli şirkət "Azvirt" MMC birgə icra edir.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

Füzuli-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarının ərazisindən keçir.

Bütün yollar Qarabağa aparır...

# "Qarabağ ilmələrdə" sənədli filminin təqdimat mərasimi olub

Dekabrın 28-də Nizami Kino Mərkəzində "Qarabağ ilmələrdə" sənədli filminin təqdimat mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, 44 günlük Vətən müharibəsindəki Qələbəmizi simvolizə edən və xalqımızın həmrəyliyini nümayiş etdirən sənədli film "Qarabağ ilmələrdə" sosial layihəsi çərçivəsində hazırlanıb.

Ekran əsərinin təqdimatından öncə "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri Ayaz Mirzəyev çıxış edərək film haqqında məlumat verib.

Bildirib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsini simvolizə edən və xalqımızın həmrəyliyini nümayiş etdirən sənədli film "Qarabağ İlmələrdə" adlı sosial layihə çərçivəsində hazırlanıb. Vurğulayıb ki, "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin təşəbbüsü, Mədəniyyət Nazirliyi, "Azərxalça" ASC və "Təmiz Şəhər" ASC-nin dəstəyi ilə keçirilən sosial layihədə bir xalçanı 44 gün ərzində minlərlə insan toxuyub. Sonuncu ilmələri Zəfər günü ərəfəsində işğaldan azad olunan Şuşa şəhərində vurulan xalçanın toxunma prosesi əvvəldən axıra qədər filmdə əks olunur.



Sonra film nümayiş edilib.

Filmin nümayişindən sonra çıxış edən Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə qeyd edib ki, layihə çərçivəsində toxunan xalça Qələbəmizin rəmzidir.

Nazirlik rəsmisi söyləyib ki, xüsusi avtomobildə daşınan xalçaya şəhid ailələri, müharibə iştirakçıları və müxtəlif bölgələrdə yaşayan vətəndaşlar ilmə ataraq, Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun rəhbərlik etdiyi şanlı Ordumuz tərəfindən 44 günün sonunda düşmən üzərində qazanılan qələbənin yaşatdığı hissləri dilə gətiriblər.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Emin Məmmədov vurğulayıb ki, layihəyə "Azərxalçanın" 12 emalatxanası və 16 toxucusu cəlb olunub: "Məlumdur ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi. Vətən müharibəsində bir daha ölkəmizin gücünü gördük. Biz bu layihə ilə xalqımızı yenidən mədəni irsimiz, tariximizlə birləşdirməyə nail olduq".

Tədbirdə filmin ssenari müəllifi Orxan Cabbarlı layihənin həyata keçməsində zəhməti keçən hər kəsə təşəkkürünü bildirib.

Sonda Milli Qəhrəman, şəhid general-mayor Polad Həşimovun, şəhid polkovnik-leytenant Raqub Orucovun və Vətən müharibəsi şəhidi Denis Əliyevin ailə üzvlərinin iştirakı ilə 44 gün ərzində toxunan Qarabağ "Çələbi" xalçasının kəsim mərasimi olub.

Qeyd edək ki, "Qarabağ İlmələrdə" sənədli filminin ssenari müəllifi Orxan Cabbarlı, quruluşçu rejissoru Emil Babayev, rejissoru Bəhruz Qədirov, quruluşçu operatoru isə Böyükağa Nağıyevdir.

# "Azərişıq" ASC ötən il kommunal xidmət göstərənlər arasında birinci oldu

Tovuz Regional "ASAN xidmət" Mərkəzində "Azərişıq" ASC-nin il ərzində tətbiq etdiyi yeniliklərlə və həmçinin işğaldan azad edilmiş ərazilərdə ən son görülən işlərlə bağlı "ASAN xidmət"lə İş və Elektron İdarəetmə Departamentinin direktor müavini İsa İsazadənin iştirakı ilə media nümayəndələri üçün brifinq təşkil edilmişdir.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" 2017-ci il 4 aprel tarixində 1313 nömrəli Fərman imzalanmışdır. Fərmanın icrası ilə əlaqədar olaraq sahibkarların müraciətlərinin şəffaf və səmərəli idarə olunması məqsədi ilə "Azərişıq" ASC tərəfindən Elektron Müraciətlərin İdarə Olunması Sistemi (EMİOS) yaradılmışdır. Belə ki, pandemiya dövründə hərəkət məhdudiyyətini də nəzərə alaraq sahibkarların onlayn qaydada Elektron Müraciətlərin İdarəetmə Sistemi vasitəsi ilə müraciət etmək imkanlarının olması onların enerji təchizatı şəbəkəsinə qoşulmasını asanlaşdırmışdır. Bu islahatlar biznesin inkişafının və əhalinin rifahının yüksəldilməsi məqsədi daşıyır.

EMİOS vasitəsi ilə sahibkar reyestr və qeydiyyat nömrəsini təqdim etməklə 150 kV-a (kilovat) qədər mövcud və ya inşa ediləcək tikinti obyektini E-GOV (elektron hökümət portalı), e-service.azerishiq.az saytından, "ASAN xidmət" və ya "ASAN Kommunal" mərkəzlərində quraşdırılmış ÖZÜNƏXİDMƏT PƏNCƏRƏLƏRİNDƏN istifadə edərək enerji təchizatı şəbəkəsinə qoşulma üçün onlayn qaydada müraciət edə bilər. Bununla da sahibkar müraciət zamanı tələb olunan gücü müəyyənləşdirdikdən sonra onlayn şəkildə qoşulma haqqını ödəməyə nail olar. Bu istiqamətdə aparılmış təbliğat və təşviqat işləri nəticəsində onlayn müraciətlərin sayında keçən ilə nisbətən cari ildə xeyli artım müşahidə olunur.

20 dekabr 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN xidmət indeksi" üzrə aparılmış qiymətləndirmənin nəticələri ilə əlaqədar onlayn formatda görüş keçirmişdir. Görüş zamanı 2021-ci ildə "Azərişıq" ASC kommunal xidmətlər göstərən qurumlar arasında ən yüksək nəticə göstərərək birinci yerə layiq görülmüşdür. Bu da onu göstərir ki, "Azərişıq" ASC-nin tətbiq etdiyi islahatlar öz töhfəsini verərək pandemiya dövründə vətəndaşların enerji təchizatı şəbəkəsinə səmərəli şəkildə qoşulması üçün zəmin yaratmışdır.

Qeyd edilmişdir ki, dövlət başçısı tərəfindən innovativ yeniliklərin tətbiqi daim əsas prioritet məsələdir. Bu məqsədlə "Azərişıq" ASC oktyabr ayından etibarən "Dubay-EXPO 2020"də Azərbaycan pavilyonunda hər ay xarici tərəfdaşlarımıza və pavilyona qatılmış qonaqlara öz yeniliklərini təqdim edir. Yeni tətbiq olunacaq rəqəmsal idarəetmə mərkəzində yarımstansiyaların 35/0.4 kV-luq elektrik sisteminə keçirilməsi, Yeni Yaşma, Külək parkı, 3D mobil xəritə sistemi, 199 Çağrı mərkəzi və s. haqqında geniş məlumat verilir.

Aparılan görüşlər nəticəsində "Azərişıq" ASC Slovakiya, Ruminiya,Türkiyə kimi bir sıra ölkələrlə əməkdaşlıq qurur və gələcəkdə əməkdaşlığın möhkəmləndirilməsinə dair sazişlər imzalanması nəzərdə tutulur. Dekabr ayında "Azərişıq" ASC-nin nümayəndə heyətinin Tatarıstanın "Setevaya Kompaniya" ASC-yə işgüzar səfəri olmuş və qarşılıqlı saziş imzalanmışdır.

2021-ci ildə Qarabağ regionundan enerji təchizatı şəbəkəsinə qoşulma ilə əlaqədar 36 onlayn müraciət daxil olmuşdur. Şuşa şəhərinin baş planına uyğun olaraq 9 ədəd 35 kV-luq yarımstansiyanın tikilməsi nəzərdə tutulmuşdur. Nəzərdə tutulan yarımstansiyaların 6-sı tikilməkdədir və 3 yarımstansiyanın tikinti - quraşdırma işləri bitmək ərəfəsindədir. Şuşa şəhərində gələcəkdə istifadəyə veriləcək yarımstansiyalardan çıxan elektrik naqilləri yeraltı çəkiləcəkdir. İlk dəfə olaraq yarımstansiyadan abonentin sayğacına qədər və hətta sayğacda olan məlumatları belə rəqəmsal idarəetmə mərkəzi vasitəsi ilə onlayn oxumaq və idarə etmək mümkün olacaq.

Kəlbəcər şəhərində də mütəmadi olaraq işlər davam etdirilir. Rayon ərazisində əksər hərbi hissələr elektrik enerjisi ilə təmin olunmuşdur. Eyni zamanda Güləbirddən Laçın dəhlizinə qədər və həmçinin Laçın dəhlizindən keçməklə Minkənd istiqamətində 35 kV-luq yeni xətlərin çəkilişinin 70 faizdən çoxu icra olunub və hazırda da işlər davam etdirilir.

# Özünüməşğulluq proqramı üzrə son bir həftədə 400-ə yaxın şəxs üçün kiçik bizneslər yaradılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı iştirakçılarına aktivlərin paylanması prosesi ötən həftə də davam edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həftə ərzində paytaxt və regionlarda 400-ə yaxın işsiz və işaxtaran şəxsə mal və materiallar formasında aktivlər təqdim edilməklə onlar üçün kiçik bizneslər yaradılıb.

Özünüməşğulluq proqramı iştirakçılarının mühüm hissəsini şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları təşkil edir.

Proqrama cəlb olunan şəxslər üçün əvvəlcə təlimlər təşkil olunur, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir. Təlimləri uğurla başa vuran şəxslər seçdikləri özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

◆ Dünya gündəmi

# 2022-ci ildə dünya iqtisadiyyatına təhdidlər davam edəcək

*Əvvəli 1-ci səh.*

İqtisadi artımın ləngiməsi səbəbindən Beynəlxalq Valyuta Fondu (BVF) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) cari il üçün proqnozlarını bir qədər azaldıb. Onların gələn il üçün proqnozu hələlik qüvvədə qalır. Lakin ekspertlərin fikrincə, koronavirusun yeni variantlarının yayılması iqtisadiyyatı geri ata bilər. Eyni zamanda koronavirus pandemiyası investorları 2022-ci ildə gərginlikdə saxlayacaq yeganə risk deyil.

## Peyvəndlərə davamlı koronavirus variantları

Noyabr ayında dünyanın maliyyə bazarları çaxnaşmaya düşdü: Cənubi Afrikada koronavirusun yeni "Omikron"variantı aşkar edildi. Sürətlə yayılan infeksiya birjaindekslərini aşağı saldı. İnvestorlar yeni mutasiyanın iqtisadi nəticələrini qiymətləndirməyə çalışarkən təxminən bir həftə bazarlar tərəddüd etdi. Müxtəlif ölkələrin hökumətləri potensial təhlükəli variantın yayılmasının qarşısını almaq üçün antikovid məhdudiyyətlərini sərtləşdirdilər.

Tədqiqatçılar hələ də kifayət qədər məlumatın olmadığı "Omikron"u araşdırarkən, dünyanın ən iri banklarından biri olan JP Morgan strateqləri hesab edibb lər ki, bu variant "Delta"dan daha sürətli ötürülməsinə baxmayaraq, sələfi kimi ölümcül deyil.

Amma "Omikron" iqtisadi inkişaf yolunda böyük maneə olmasa belə koronavirusun növbəti variantı bu cür maneə ola bilər. Ekspertlər xəbərdarlıq edirlər ki, əgər universal peyvənd uğursuz olarsa, onda koronavirusun vaksinlərinə qarşı davamlı mutasiyaların ortaya çıxması yeni lokdaunlara səbəb olacaq.

BVF-nin baş iqtisadçısı Gita Hopinat xəbərdarlıq edib ki, pandemiya uzansa, yaxın beş ildə dünya ÜDM cari proqnozla müqayisədə 5,3 trilyon dollar azala bilər. Onun dediyinə görə, cari ildə hər bir ölkə əhalisinin 40 faizinin və növbəti ilin ortalarınadək isə əhalinin 70 faizinin tam peyvənd edilməsi siyasətçilərin əsas prioriteti olmalıdır. Lakin hələ ki aşağı gəlirli ölkələrdə əhalinin təxminən 5 faizi tam peyvənd olunub.

## Qlobal logistika böhranı

Təchizat zəncirlərindəki qırılmalar bu il iqtisadi artımın ləngiməsində əsas rol oynayıb. Daşınma problemlərinin, konteynerlərin çatışmazlığından və pandemik məhdudiyyətlərin aradan qaldırılmasından sonra tələbatın kəskin artması komponentlər və xammal çatışmazlığı yaradıb.

Avrozonada, o cümlədən Almaniyada istehsalın azalması səbəbindən avtomobil sənayesi ən çox zərər çəkənlər arasında yer alıb. Avtomobil istehsalçıları komplektləşdirici avadanlığın, ilk növbədə, yarımkeçiricilərin çatışmazlığı üzündən istehsalı azaltmalı olub.

Nəqletmə qiymətlərinin düşməsi və mikrosxemlərin ixracının artması ilə əlaqədar təchizatla bağlı problemlərin qismən həll ediləcəyi gözlənilsə də, ekspertlər tədarük zəncirlərindəki qırılmaların gələn il də iqtisadi artımın qarşısını almaqda davam edəcəyini proqnozlaşdırırlar.

"DSV Air & Sea Germany" nəqliyyat-logistika şirkətinin idarəedici direktoru Frank Sobotka güman edir ki, 2022-ci ildə vəziyyətin yaxşılaşması gözlənilmir. Belə ki, 2023-cü ildə dəniz daşımalarının həyata keçirilməsi üçün yeni lazımi güclər işə salınmalı və ya tədarük zəncirləri "niarşorinq" ə (istehsalatın bir hissəsinin qonşu regionlara köçürülməsinə) yönəldilməlidir.

## İnflyasiya artımı

Xammalın və komponentlərin çatışmazlığı, habelə enerji daşıyıcılarının yüksək qiymətləri nəticəsində avrozonada inflyasiya göstəriciləri çoxillik rekordları yeniləyib. Bu, mərkəzi bankların qiymət artımının qarşısını almaq üçün faiz dərəcələrini vaxtından əvvəl artırmaq məcburiyyətində qalacağından ehtiyatlanan qlobal investorları narahat edir.

Avropa Mərkəzi Bankı (AMB) iddia edir ki, qiymət artımı kifayət etrməyən təchizat həcmi, enerji qiymətlərinin artımı və bazanın təsiri kimi müvəqqəti amillərdən qaynaqlanır. AMB-də gözlənildiyi kimi, tələbat və təklif arasında qlobal disbalansın fəsadları aradan qaldırıldıqdan sonra inflyasiya azalacaq. Təchizat zəncirlərindəki qırılmalar əvvəllər gözləniləndən daha uzun müddət sürəcəyi səbəbindən, Avropada inflyasiya 2022-ci il ərzində də artmaqda davam edəcək.

ABŞ-da inflyasiya ilə bağlı narahatlıqlar daha da artır. ABŞ Federal ehtiyat sistemi iqtisadiyyatın stimullaşdırılması proqramını minimuma endirmək və istiqrazların geri alınmasını azaltmaq imkanını nəzərdən keçirir.

## Çin texnoloji şirkətlərə qarşı sərt tədbir görür

Dünyanın ikinci ən iri iqtisadiyyatı - Çin iqtisadiyyatının artımının ləngiməsi 2022-ci ildə investorlara əlavə qayğılar gətirəcək. Asiya iqtisadiyyatının nəhəngi 2020-ci ildə pandemiyanın dünyaya yaratdığı tənəzzüldən çıxmağı bacarıb: bu, yeganə böyük iqtisadiyyat idi ki, artım baş verdi. Gözlənildiyi kimi, bu il Çin iqtisadiyyatında təxminən 8 faiz artım olacaq ki, bu da onu Hindistandan sonra ən sürətlə inkişaf edən böyük iqtisadiyyata malik dövlət edəcək.

Buna baxmayaraq, iqtisadiyyatın bərpasını Pekinin ölkədəki texnoloji nəhənglərə, o cümlədən "Alibaba" və "Tencent" şirkətlərinə, habelə özəl təhsil sənayesinə qarşı sərt tədbirləri ləngidir. Bu şirkətlər "Evergrande" və "Kaisa" kimi daşınmaz əmlak kompaniyalarının borclarıyla yüklənmişdir. İƏİT 2022-ci ildə Çinin ÜDM-nin beş faizdən bir qədər çox artacağını proqnozlaşdırır.

Pekinin COVID-19-a qarşı "sıfır dözümlülük" siyasətinə sadiqliyi də dünya iqtisadiyyatı üçün böyük risk olaraq qalacaq.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# Ermənistanın yarısı yoxsulluq içərisində yaşayır

*Əvvəli 1-ci səh.*

2021-ci ilin ikinci yarısının nəticələrinə görə, Ermənistanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var. Hazırda Ermənistan əhalisinin təxminən yarısı, 47,6 faizi yoxsulluq içində yaşayır. Ümumiyyətlə, bu ölkədə yoxsulların 51,1 faizini kənd, 48,9 faizini isə şəhər sakinləri təşkil edir. Ermənistan Statistika Komitəsinin Məişət Statistikası Departamentinin rəhbəri Lusine Markosyan "Past" nəşrinə bildirir ki, əhalinin 0,7 faizi bütün gəlirlərini yalnız ərzaq almağa yönəldir. Qeyd olunur ki, ölkədə yemək üçün pulu olmayan əhalinin əsas hissəsi kəndlərdə yaşayır ki, bu da bir neçə amillə izah olunur: ya insanlar torpağı becərməyiblər, ya da ilin məhsulu pis olub. Belə vəziyyət hər il təkrar olunursa, deməli, bu, hökumətin ölkədə apardığı uğursuz aqrar siyasətin göstəricisi kimi qəbul edilməlidir. Qafqaz Araşdırmaları Resurs Mərkəzinin məlumatına görə, 2021-ci ilin avqustunda keçirilən sorğuda respondentlərin 51 faizi son bir ildə ərzaq almaq üçün pul çatışmazlığından qorxduqlarını, 10 faizi isə bütün günü ac qalmalı olduqlarını bildirir.

"Desoğutyun" analitik mərkəzinin eksperti Lilya Amirxanyan belə vəziyyətin yaranmasına səbəb kimi xüsusən son iki ildə baş verən yüksək inflyasiyanı göstərir. Qiymətlərin xüsusən ərzaq və həyati əhəmiyyətli mallarda artdığını bildirən Amirxanyan deyir: "Koronavirus açıq şəkildə göstərdi ki, Ermənistan iqtisadiyyatının böhranla mübarizə üçün immuniteti yoxdur. Bu da öz növbəsində 2019-cu ildə iqtisadi inqilab və misli görünməmiş iqtisadi artımla bağlı bəyanatların əsassızlığını ortaya qoydu".

O, ilin sonunda yoxsulluq səviyyəsinin 2020-ci ildəkindən xeyli yüksək olduğunu və bunda hökumətin vətəndaşlarına etdiyi "sürprizlər"in rol oynayacağını bildirir: "Əhalinin gəlirlərində heç bir müsbət dəyişiklik yoxdur". Bu da Ermənistanı ciddi iqtisadi çətinliklər gözlədiyini göstərir və bu halda büdcə gəlirləri üzrə proqnozların icrası da problem yaradır. Gələn il üçün Ermənistanda büdcənin ümumi gəlirləri 17,5 faiz artaraq 1 trilyon 946 milyard drama (təxminən 4,05 milyard dollar) çatacaq. Xərclər 2 trilyon 184 milyard dram (təxminən 4,55 milyard dollar) təşkil edəcək ki, bu da 2021-ci ilin büdcə layihəsi ilə müqayisədə təxminən 18 faiz və il ərzində dəqiqləşdirilmiş büdcədən 9 faiz çoxdur.

Bütün bunların fonunda isə pandemiya şəraiti ilə əlaqədar olaraq əksər ölkələrin gediş-gəliş, viza məsələlərini çətinləşdirməsi "erməni axını" qarşısında əsas əngələ çevrilib. Əks təqdirdə ölkədən birdəfəlik çıxan vətəndaşların sayı indikindən qat-qat çox olardı. Miqrasiya problemləri ekspertləri də narahat edir. Hətta tarixçi Arşaluis Zurabyan ümumi analiz apararaq 30 ildə faciəvi mənzərənin yaranmasından gileylənib: "Son 30 il ərzində iki milyon yarıma yaxın insan vətəni tərk edib. Əgər bu "soyqırımı siyasətinin" nəticəsi deyilsə, bəs onun adı nədir?"

Vurğulanır ki, Ermənistanda iqtisadi vəziyyətin ağırlaşması 2022-ci ildə miqrasiyanı daha da sürətləndirəcək. Məğlub ölkədə xalis miqrasiya dərəcəsi (immiqrantlarla emiqrantlar arasındakı fərq) hər min nəfərə mənfi işarə ilə 5,6-dır. Bu da Ermənistanda emiqrantların sayının immiqrantlardan hər 1000 nəfər üçün 5,6 dəfə çox olduğunu göstərir. Ermənistanda emiqrantların yaşı isə 15-65 arası dəyişir. Bu da onu göstərir ki, həm gənclər, həm də yaşlılar üçün, yəni daha geniş yaş spektrində olan vətəndaşlar üçün Ermənistanda yaşamaq və işləmək imkanları daha aşağıdır. Ermənistandan gedənlərə - emiqrantlara həm şəhər, həm də kənd yerlərində rast gəlinir. Digər bir fakt isə erməni emiqrantların daha çox qadın olmasıdır.

Göründüyü kimi, Ermənistan tarixinin ən ağır və əzablı günlərini yaşayır. Hazırda ölkədə bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Bütövlükdə, proseslərin gedişi onu göstərir ki, əgər Azərbaycanla sülh danışıqlarını uzadarsa, Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlər və qarşıdurmalar gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



## Şəhid və qazi övladları üçün Yeni il şənliyi keçirilib

Şamaxıda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilin gəlişi münasibətilə şəhid və qazi övladları üçün bayram şənliyi təşkil edilib.



“Şirvangöl” şadlıq evində keçirilən, 50 nəfərədək fidanın qatıldığı bayram şənliyində rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov, Milli Məclisin deputatı Tamam Cəfərova, şəhid ailələri, müharibə veteranları iştirak ediblər. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən deputat Tamam Cəfərova 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun əldə etdiyi Zəfərin xalqımıza yaşatdığı əvəzsiz sevinc və qürur hissindən, şəhidlərimizin və qazilərimizin qəhrəmanlıqlarından söz açıb, şəhid ailələrinin və qazilərin hər zaman diqqətdə saxlanıldığını və onların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarını vurğulayıb.

Bayram şənliyində uşaqlar üçün əyləncəli oyunlar təşkil edilib, Yeni ilin rəmzi olan Şaxta baba onlara hədiyyələr paylayıb.

## Oğuzda payızlıq dənlik bitkilərin səpini başa çatıb

Oğuz rayonunun təsərrüfatlarında gələn ilin məhsulu üçün payızlıq dənlik bitkilərin səpini başa çatıb. Torpaq mülkiyyətçiləri cari mövsümdə 11 min 283 hektarı buğda, 4 min 970 hektarı dən üçün arpa olmaqla, 16 min 253 hektar sahəyə toxum səpiblər.

Bu barədə AZƏRTAC-a Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Akif Adıgözəlov məlumat verib.

Xatırladaq ki, builki mövsümdə rayonda 16 min 453 hektar sahənin məhsulu biçilib, 53 min 576 ton taxıl istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 32,6 sentner təşkil edib. Taxıl istehsalı əvvəlki illə müqayisədə 3 min tondan çox artıb.

Qurum rəsmisinin sözlərinə görə, təsərrüfatlarda yaş tütünün qurudulması prosesi də artıq başa çatıb. Bu il oğuzlu fermerlər 220 hektarda tütün yetişdirib, 368 ton quru tütün istehsal ediblər.

# Qaranlıq gecələrdən işıqlı sabahlara

### Bir vaxtlar “qonşu şamı”na möhtac olmuş Naxçıvan MR indi özü elektrik enerjisi ixrac edir







Belə bir deyim var: “Çəkilən əziyyət yerdə qalmaz”. Bu, həqiqətən belədir. Biz - muxtar respublika sakinləri bu həqiqəti öz həyatımızda yaşamışıq.

Ötən əsrin 90-cı illərində Naxçıvanın Azərbaycanla bütün kommunikasiya əlaqələri kəsilmiş, əhalinin yaşamı çətinləşmişdi. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “Taleyin ümidinə buraxılmış tənha bir ada”nı xatırladırdı Naxçıvan o dövr.

Evlərdə elektrik enerjisi və təbii qazın yoxluğu böyük problemlərə gətirib çıxarmışdı. Əhali evlərini qızdırmaq, yemək bişirmək üçün ağacları kəsirdi. Hətta çoxları məcbur qalıb meyvə ağaclarına qıyırdı. Bununla Naxçıvanın təbiəti də blokadanın ağrılarını yaşayırdı. Üstəlik, çörək növbələri, ərzaq qıtlığı, işsizlik. Bütün bunlar muxtar respublikanın əhalisini görünməmiş sınağa çəkmişdi.

Belə ağır günlərdə dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvana qayıdışı qədim diyarımızı çətinliklərdən qurtardı. Ümummilli Lider Naxçıvanı mövcud vəziyyətdən çıxarmaq üçün mühüm qərarlar qəbul etdi. İlk növbədə muxtar respublikanın elektrik enerjisi və ərzaqla təmin olunmasından ötrü qonşu Türkiyə və İranla razılıq əldə edildi. Ardınca islahatlar aparıldı, özəl sektora geniş meydan verildi, aqrar sektorun inkişafı istiqamətində tədbirlər görüldü və s. Və bütün bunlar nəticəsiz qalmadı. Kənd əhalisinin pay torpaqları ilə təmin olunması ərzaq probleminin həllinə, kənd və ailə təsərrüfatının təşəkkülünə, eləcə də muxtar respublikanın ərzağa tələbatının yerli məhsullar hesabına təminatına şərait yaratdı.

Bununla yanaşı, digər sahələrin də inkişafı diqqətdən kənar qalmadı. Belə sahələrdən ən vacibi elektrik enerjisi ilə təminat idi. Naxçıvan MR-in iqlim şəraiti alternativ və bərpaolunan enerjidən istifadə üçün geniş imkanlar açırdı. Müasir energetika infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasında bu amil əsas götürülərək su, külək, günəş elektrik stansiyaları tikilərək bir-birinin ardınca istifadəyə verilməyə başladı. Təkcə son illər Prezidentin iştirakı ilə muxtar respublikada Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan yeni su elektrik stansiyası, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Azərbaycanda ilk derivasiya tipli 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları, Babək rayonunun Xalxal kəndində 20 meqavat gücündə günəş elektrik stansiyası istismara qəbul olundu. 2017-ci ildə həmin ərazidə 2, 2019-cu ildə Kəngərli rayonunun Qabıllı kəndində 2, ötən il isə 3 meqavat gücündə yeni günəş elektrik stansiyalarının qurulması da Naxçıvanın etibarlı enerji təminatına xidmət edir. Bununla yanaşı, “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində regionda irimiqyaslı infrastruktur layihələrinin icrası, əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, bütün sahələrdə maddi-texniki bazanın gücləndirilməsi və insanların rifahının yaxşılaşdırılması üçün görülən quruculuq tədbirləri də nəticəsiz qalmır. Proqramda nəzərdə tutulan və icrası həyata keçirilən tədbirlər muxtar respublikada enerji təchizatı sahəsində müsbət dinamikanın əldə olunmasına səbəb olub. Hazırda Naxçıvan MR-də elektrik enerjisinə olan tələbatın 50 faizdən çoxu bərpa edilən enerji mənbələri hesabına ödənilir.

Xatırladaq ki, 2019-cu il avqustun 26-da Bakıda Naxçıvan MR Dövlət Energetika Xidməti ilə Çin Xalq Respublikası Ticarət Nazirliyi arasında muxtar respublikaya mobil elektrik stansiyalarının verilməsi haqqında imzalanmış müqaviləyə əsasən, regionumuza 2 dəst 200 kilovat gücündə “İSUZU” markalı dizel generator maşını, 410 dəst 2 kilovat gücündə mobil günəş elektrik stansiyası, 410 dəst günəş su qızdırıcısı, 6 dəst 10 kilovatlıq külək-günəş hibrid elektrik stansiyası qurğusu verilmişdir. Naxçıvan Dövlət Universitetində Elektroenergetika ixtisası üzrə təhsil alan tələbələrin biliklərinin təcrübə ilə daha dərindən mənimsəmələri, yeni texnologiyalarla yerində tanış olmaları üçün universitet şəhərciyində 10 kilovat gücündə külək-günəş hibrid elektrik enerjisi mənbəyi və günəş su qızdırıcısı quraşdırılmışdır. Digər 5 dəst külək turbinlərinin və günəş panellərinin təyinatları dəyişdirilərək Culfa rayonunun Gülüstan kəndi yaxınlığında 3,3 hektar ayrılmış əkinəyararsız ərazidə komplektləşdirilərək 1,1 meqavatlıq yeni külək-günəş hibrid elektrik stansiyası tikilmişdir. Qeyd edək ki, stansiyanın layihələndirilməsi, avadanlıqların seçilməsi, uyğunlaşdırılması və quraşdırılması energetika xidmətinin mütəxəssisləri, tikinti-quraşdırma işləri isə “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən qısa müddətdə və yüksək keyfiyyətlə aparılmışdır. Burada hər birinin gücü 280 vatt olan 3520 müasir alüminium çərçivəli günəş paneli, 50 kilovat gücü olan 20 invertor, 10 kilovat gücü olan 11 invertor-controller, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları quraşdırılmışdır.

Bütün bu və qeyd etmədiyimiz digər tədbirlər sayəsində artıq muxtar respublika qaranlıq, şam işıqlı gecələrini geridə qoymuş, enerji tələbatını özü təmin edən, eyni zamanda ixrac edən bir diyara çevrilmişdir.

***Səriyyə SALAHOVA,***
***“Arazın səsi” qəzetinin məsul katibi***

# “Biz heç vaxt dövlətin diqqətindən kənarda qalmamışıq”

### Prezident son fərmanı ilə Qarabağ qaziləri arasında fərq qoyulmadığını bir daha təsdiq etdi

90-cı illərin əvvəlləri idi. Azərbaycanda hökm sürən özbaşınalıq, hərc-mərclik və xaos insanları təngə gətirmişdi. Hakimiyyət uğrunda gedən mübarizələr insanların dolanışığına da təsir göstərmişdi. Bu səbəbdən Habil qərara gəldi ki, Rusiyaya gedib ailəsinin dolanışığını təmin etsin.



İşləri pis getmirdi. Hər ay qazancından ailəsinə pul göndərməklə onların dolanışığını təmin edirdi. Günlərin bir günü evlərinə telefonla zəng edərkən ona yaxın günlərdə qardaşının toyu olacağını söylədilər. Belə bir əziz gündə iştirak etmək üçün Habil Gəncəyə gəldi və qardaşının sevincinə şərik oldu.

Həmin vaxtlar Qarabağda gərgin döyüşlər gedirdi. Habil qərara aldı ki, torpaqlarımızın yağı düşməndən qorunmasında o da öz borcunu yerinə yetirsin. Hərbi komissarlığa gələndə gözlərinə inanmadı. Komissarlığa Vətənin müdafiəsinə getmək üçün yüzlərlə gənc toplaşmışdı.

Hərbi xidmətə Goranda təşkil olunmuş təlim toplantısından başladı. Təlim zamanı yüksək rütbəli bir zabitin gələrək gənclər arasında nişançı olub-olmadığını soruşanda iki nəfər qabağa çıxdı. Onlardan biri Habil Mirzəyev idi. O, bu peşəyə sovetlər birliyi dövründə Macarıstanda həqiqi hərbi xidmətdə olarkən yiyələndiyini, hətta bir neçə dəfə snayper atıcılığı yarışlarında birinci yerə çıxdığını söylədi.

Artıq bir neçə gündən sonra Habil əsgər yoldaşı Ruslanla birlikdə döyüş bölgəsinə yollandı. Hər iki nişançı “Fred” ləqəbli Milli Qəhrəman Asif Məhərrəmovun batalyonunda düşmənə qarşı döyüşlərə başladı. Həmin dövr batalyonda 33 gəncəli var idi. Onların ilk döyüşləri Ağdamın Şelli və Gülablı kəndlərindən başladı. Onu da qeyd edək ki, Habil sərrast atıcı olduğundan tez-tez onun yerini dəyişir, müxtəlif batalyonların tərkibində döyüşlərə göndərirdilər. Habil bir neçə dəfə Milli Qəhrəman Allahverdi Bağırovun batalyonunda döyüşlərdə iştirak etmişdi. Hətta bacarığı nəzərə alınaraq Habili bir neçə dəfə kəşfiyyata da göndərmişdilər. O, snayperi ilə Xocalıya kimi gedib çıxmış, Asif Məhərrəmovun və Allahverdi Bağırovun dəstəsi ilə Naxçıvanik, Pircamal, eləcə də Ağdamın Ərənzəmin və Ağbulaq kəndlərinin düşməndən azad olunmasında iştirak etmişdi.

Habil Mirzəyev xasiyyətcə çox sakit adama oxşayır. Bunu onunla görüşdə də hiss etdik. Bizimlə görüşündə elə ilk sözü bu oldu: “Yaxşı olardı ki, döyüş yoldaşlarımla görüşəsiniz. Birinci Qarabağ müharibəsində baş verənləri onlar daha dəqiq danışarlar”.

Buna baxmayaraq, xahiş etdik ki, yaddaşını silkələyib, o ağır günlərdən, düşmənə qarşı döyüşən oğullarımızdan biri kimi o da danışsın.

“Çox ağır günlər idi. Batalyonlar arasında əlaqələrin zəif olması çoxlu sayda könüllü əsgərimizin həlak olması ilə nəticələnirdi. Günlərin bir günü əmr gəldi ki, düşmən Drambonda iki batalyonumuzu tamamilə məhv edib. Həmin gün gecə genişmiqyaslı hücuma keçdik. Çoxlu sayda düşməni məhv etdik. Mən snayperdən açdığım sərrast atəşlə onlarca erməni əsgərini öldürdüm. Həmin vaxt Ağdamın könüllüləri də bizə qoşulmuşdular. Ağır gedən döyüşlərdə həm Drambonu, həm də Çıldıranı düşməndən geri aldıq. Ancaq düşmən strateji cəhətdən vacib olan Drambonu heç cür əldən vermək istəmir, gülləni başımıza yağış kimi yağdırırdı. Nəhayət, döyüş bir qədər səngidi. Çox yorulmuşduq. Yenicə oturub dincəlmək istəyirdik ki, ermənilər bizi minamyot atəşinə tutdular. Ara sakitləşəndə gözlərimizə inanmadıq. Hər tərəf yaralılardan və həlak olmuş əsgərlərimizdən ibarət idi. Batalyonumuzun 15 əsgəri yaralanmış, 20-yə yaxın döyüşçümüz isə şəhid olmuşdu. Mən yaralılara kömək etmək istəyəndə gördüm ki, çiynimdən, ayağımdan və qolumdan yaralanmışam. Əlimi yerə dayayıb qalxmaq istəyəndə qolumun qırıldığını gördüm. Döyüş yoldaşlarım Elçin İsmayılov və Saleh Verdiyev mənə kömək edərək mövqedən çıxardılar və Tərtər hospitalına apardılar. Yaralarımın ciddi olduğunu nəzərə alıb bir gün sonra Bakıya göndərdilər”.

Hazırda Habil Mirzəyev ikinci qrup Qarabağ müharibəsi əlilidir. 350 manat Prezident təqaüdü, 420 manat pensiya alır. Dövlət başçısının bu günlər imzaladığı fərmana əsasən isə birdəfəlik yardım alacağı gözlənilir. Bütün bunlara görə minnətdarlıq edən Habil Mirzəyev sonda 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun əldə etdiyi uğurlardan qürur duyduğunu, şəhid olmuş əsgər qardaşlarının qanlarının yerdə qalmadığını söylədi.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## “Rəqəmsal Kənd Təsərrüfatı”nın əhatə dairəsi genişlənir

Bitki xəstəlik və zərərvericilərinə qarşı mübarizə effektivliyini artıraraq yüksək məhsuldarlığın əldə edilməsi və fermer xərclərinin optimallaşdırılması məqsədilə 2021-ci ilin birinci rübündə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən “Rəqəmsal Kənd Təsərrüfatı” layihəsi başlanıb.

İlkin mərhələdə pilot layihə olaraq Quba və Qusar rayonlarında fəaliyyət göstərən 4 iqlim stansiyası əhatəsindəki alma, gilas, şaftalı və nektarin təsərrüfatları ilə məşğul olan 5800-dən artıq fermer hədəf seçilib. Cari il ərzində dəmgil, boz çürümə, deşikli ləkəlilik, yarpaq qıvrılması və s. xəstəliklər, alma meyvəyeyəni zərərvericisi haqqında fermerlərə ümumilikdə 20,583 SMS bildirişləri göndərilib.

Stansiyalar üzərində quraşdırılmış sensorlar havanın temperaturu, rütubət səviyyəsi, yağış miqdarı, yarpaqların nəm qalma müddəti, yağıntıların düşmə vaxtı və küləyin sürəti barədə məlumatları toplayır. Bu məlumatlar süni intellekt vasitəsilə emal edildikdən sonra yekun nəticələr Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən analiz olunur. Xəstəlik və zərərvericilərin yayılması üçün uyğun şərait qeydə alındıqda mövcud risklə bağlı fermerlərə SMS bildirişlər göndərilir.

Risk məlumatlarının daha ətraflı və çevik ötürülməsi məqsədilə “Rəqəmsal Kənd Təsərrüfatı” adlı “Teleqram” kanalı yaradılıb. Bu kanalla həmçinin fərdi olaraq keçirilmiş qiymətləndirilmələrdə layihə fermerlər tərəfindən müsbət dəyərləndirilib.

Bunları nəzərə alaraq, “Rəqəmsal Kənd Təsərrüfatı” layihəsinin əhatə dairəsinin genişləndirilməsi 2022-ci il üçün hədəf qoyulub və bu istiqamətdə işlərə başlanılıb. Belə ki, növbəti ildə Cəlilabad rayonu ərazisində kartofda fitoftora, alternarioz, qaraayaq və kolorado kartof böcəyi üzrə, Zaqatala rayonu ərazisində isə fındıq təsərrüfatlarında unlu şeh və antraknoz xəstəlikləri üzrə fermerlərə müvafiq SMS bildirişləri göndəriləcək.




## Fermerlər ixraca təşviq edilir

Kənd Təsərrüfatı Nazirliyi və “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin təşkilatçılığı ilə fermerlərin ixraca təşviqi barədə onlayn seminar keçirilib.

Maarifləndirmə xarakteri daşıyan tədbirin təşkilində əsas məqsəd fermerləri və yerli qida istehsalçılarını xarici bazarların standartları, hədəf bazarın təyin olunması, məhsulların tanıdılması üçün uyğun platformaların seçilməsi, ixrac prosesi zamanı beynəlxalq sertifikatların və digər sənədlərin hazırlanması, potensial alıcı bazasının yaradılması və yeni müştərilərin tapılması istiqamətlərində məlumatlandırmaq olub.

Seminarda Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki “Aqrar Tədarük və Təchizat” ASC-nin, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin, Aqrar Tədqiqatlar Mərkəzinin, AzExport.az saytının, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Natiqlər ixrac prosesi ilə bağlı fermerləri maraqlandıran mövzular barədə çıxış ediblər, həmçinin fermerlər tərəfindən verilən sualları cavablandırıblar.

## “Aqro SMM” layihəsinin icrası yekunlaşdı

“Aqrar İnkişaf Könüllüləri” Təşkilatının təşkilatçılığı, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi, “Zirə Mədəniyyət Mərkəzi” və “Prior Leasing ASC”nin dəstəyi ilə “Aqro SMM” layihəsinin bağlanış mərasimi keçirilib.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbərinin müavini Elvin Paşayev, nazirliyin Meyvəçilik və tərəvəzçilik şöbəsinin müdiri Surxay Novruzlu, “ABAD” publik hüquqi şəxsin Marketinq, beynəlxalq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Ləman Əhmədova, Medianın İnkişafı Agentliyinin Media dəstək layihələri üzrə Qrup rəhbəri Ləman İsgəndərova, “Grand Agro İnvitro” MMC-nin marketinq üzrə mütəxəssisi Qədir Qurbanov və “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının sədri Kamran Əliyev iştirak edib.

Bağlanış mərasimində iştirakçılar layihə çərçivəsində qazandıqları bilik və bacarıqları nümayiş etdirmək məqsədilə aqrar sahə üzrə formalaşdırdıqları innovativ layihə və media strategiyalarını nümayiş etdiriblər. Təqdimatlar münsiflər heyəti tərəfindən qiymətləndirilib. Tədbir çərçivəsində təşkil edilən panel müzakirələrdə aqrar sahədə media savadlılığı, qabaqcıl informasiya və kommunikasiya texnologiyalarının kənd təsərrüfatı və mediada yaratdığı imkanlar, eləcə də rəqəmsal marketinq trendləri müzakirə olunub.

Sonda layihə iştirakçıları sertifikatlarla təltif edilib və qalib komanda üzvləri mükafatlandırılıblar.

